Abuzər Xələfov

# M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

## 90 il

## Elm və mədəniyyətin xidmətində



Bakı-2013

ABUZƏR XƏLƏFOV

Azf- 276/91

# M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASI 90 İL ELM VƏ MƏDƏNİYYƏTİN XİDMƏTİNDƏ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI-2013

**Redaktor:** **K.Aslan**
Pedaqogika üzrə fəlsəfə doktoru,
dosent

**Rəyçilər:** **E.Əhmədov**
Pedaqogika üzrə fəlsəfə doktoru,
dosent
**P.Kazımi**
Tarix üzrə fəlsəfə doktoru

**Xələfov Abuzər Alı oğlu**
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası 90 il elm və mədəniyyətin xidmətində. - Bakı: "Bakı Universiteti" Nəşriyyatı, 2013.- 64 s.

*Kitabda M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının yaranması və inkişafı tarixinə nəzər salınmış, kitabxananın ölkə elminin, marifinin, mədəniyyətinin inkişafındakı rol və əhəmiyyəti araşdırılaraq ümumiləşdirmələr aparılmışdır. Xüsusilə kitabxananın 70-80-ci və müstəqillik illərindəki, fəaliyyəti, oxuculara xidmətin təşkili prosesində həyata keçirdiyi tədbirlər və kitabxananın elmi-metodiki biblioqrafik fəaliyyəti haqqında elmi məlumatlar verilmişdir. Müstəqillik illərində kitabxananın informasiyalaşdırılması əhaliyə informasiya xidmətinin təşkili haqqında məlumatlar geniş şərh edilmişdir.*

© ***"Bakı Universiteti" nəşriyyatı, 2013***

***Kitab, elm və mədəniyyət məbədgahı kimi müqəddəsləşən Azərbaycan kitabının qızıl fondu, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 90 illiyinə ittihaf olunur.***

## ÖN SÖZ

2013-cü ilin oktyabr ayında ölkəmizdə xalqımızın milli sərvəti, elm, təhsil və mədəniyyət məbədgahı olan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 90 illiyi tamam olur. Bu tarixi gün xalqımızın, elmimizin, təhsilimizin, mədəniyyətimizin, ziyalılarımızın, elmə, biliyə can atan bütün insanların bayramıdır.

Elm, bilik, mənəviyyat, maarifçilik məbədi olan Milli Kitabxana insan ruhunun bütün zənginliklərini toplayan qoruyub saxlayan, onu nəsildən-nəslə ötürən əvəzedilməz mənəvi abidədir. 90 il şərəfli tarixi yol keçmiş daim xalqımızın işiqlı gələcəyinə, elminə, təhsilinə, mənəviyyatına, intellektual səviyyəsinin yüksəlməsinə xidmət etmiş, insanlığın kamilləşməsinin, insan ağlının, zəkasının dərinləşməsinin, əxlaqının saflaşmasının əsas amili olmuş bu mənəvi abidə həmişəyaşardır, əbədidir, bəşəridir, cəmiyyətin, sivilizasiyanın məhək daşıdır.

Tarixi-mənəvi, ədəbi-bədii və elmi-fəlsəfi irsin qorunub saxlanmasında, tarixi yaddaşımızın möhkəmlənməsində, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafında əvəzsiz rol oynayan Milli Kitabxana Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, dünyanın müxtəlif

ölkələrində Azərbaycan haqqında nəşr edilmiş əsərləri, bəşəri əhəmiyyət daşıyan nəşrləri, həmçinin xarici dillərdə çıxan ümumbəşəri xarakterli kitabları və digər məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli mədəniyyət xəzinəsi və dövlət kitab saxlayıcısıdır.

Milli Kitabxana müstəqil Azərbaycan dövlətçiliyinin, milli ideologiyanın və Azərbaycançılıq fəlsəfi konsepsiyasının təbliği elmi mərkəzdir.

XX əsrin əvvəllərindən fəaliyyətə başlayan M.F.Axundov adına Azərbaycan Milli Kitabxananın ölkədə baş verən sosial və mədəni dəyişikliklərlə əlaqədar funksiyası genişlənmiş, ölkənin dövlət kitab saxlayıcısı kimi inkişaf etməklə daha yeni, mürəkkəb funksiyalar yerinə yetirməli olmuşdur. Məhz bu funksiyalar onu ölkənin elm və mədəniyyət mərkəzinə çevrilməsi üçün şərait yaratmışdır. Milli kitabxananın əsas funksiyaları aşağdakı kimi formalaşmışdır.

1. Milli kitabxana ölkənin bütün çap məhsulunun və elektron informasiya vasitələrinin dövlət saxlayıcısıdır.

2. Ölkə əhalisinin bütün təbəqələrinin istifadə etdiyi mərkəzdir.

3. Əhaliyə informasiya və biblioqrafiya xidmətini təşkil edən informasiya və biblioqrafiya mərkəzidir.

4. Respublikada kitabxana işinin kordinasiya edilməsi və əlaqələndirmə mərkəzidir.

5. Kitabxanaşünaslıq (o cümlədən elektron kitabxanaşünaslıq), biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində elmi-tədqiqat müəssisəsidir.

6. Respublika kitabxanalarının metodik mərkəzidir.

7. Milli Kitabxana elektron informasiya daşıyıcılarının, elektron xidmətin mərkəzi kimi böyük və hər cəhətli elektron kitabxanadır.



8. Milli Kitabxana internet-kitabxana əlaqələri, oxuculara internet vasitəsi ilə xidmət mərkəzidir.

Respublikanın universal profilli baş elmi kitabxanası kimi göstərilən funksiyaları kompleks halında yerinə yetirmək üçün öz elmi-metodiki potensialından istifadə etməklə yanaşı müxtəlif tipli mərkəzi elmi kitabxanaların gücündən də istifadə edir.

Milli Kitabxana respublikamızda kitabxanaşünaslıq (həmçinin elektron kitabxanaşünaslıq), biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində elmi-tədqiqat, elmi araşdırmalar mərkəzidir. Kitabxanaşünaslıq elminin aparıcı mərkəzi, elmi-tədqiqat işlərinin təşkili və təşkilatçısı, kitabxana işi proseslərinə dair sosioloji tədqiqat müəssisəsidir. Milli Kitabxananın ən mühüm funkisiyalarından biri respublikada kitabxanalara metodiki təminatın təşkilinə dair elmi-metodiki işlərin təşkili və idarə edirlməsidir.

Milli Kitabxana həmçinin dövlət təlimatına müvafik beynəlxalq və ölkə daxili depozitar mərkəz funksiyasını yerinə yetirir.

Son zamanlar Milli Kitabxananın funksiyalarına oxuculara elektron vasitələrlə xidmətin təşkili daxil edilmişdir. Dövrün tələbləri əsasında formalaşan bu mühüm funksiya kitabxanada böyük islahatların aparılmasını, kitabxana işinin informasiyalaşdırılmasını, kitabxana işinə kitabxana-informasiya texnologiyasının tədbiq edilməsini, yeni proqram qəbul edilməsini həyata keçirir. Milli Kitabxananın elmi tədqiqat fəaliyyətində kitabxanaşünaslığın, biblioqrafiyaşünaslığın və kitabşünaslığın müxtəlif sahələrinə onların müasir problemlərinə, kitabxanaların təcrübi fəaliyyətinin ümumiləşdirilməsinə dair araşdırmalar mühüm yer tutur, Milli Kitabxana həmçinin oxucuların informasiya tələbatını ödəmək üçün, xalq təsərüfatının, elm və mədəniyyətin mühüm sahələrinə dair monumental

biblioqrafik əsərlər, biblioqrafik göstəricilər tərtib edərək, nəşr etməyə böyük diqqət yetirir.

Milli kitabxanalar bəşər elminin, mədəniyyətinin, maarifinin formalaşmasında, inkişaf və tərəqqisində böyük rolu və əhəmiyyəti olduğundan dünyanın bütün inkişaf etmiş ölkələri dünya sivilizasiyasının əsas amili, elmin, təhsilin, mədəniyyətin inkişafı vasitəsi, bəşəriyyətin işıqlı gələcəyə can atmasının elm və mədəniyyət məbədgahı kimi qiymətləndirmişlər. Ona görə də "Milli Kitabxana" problemi bəşəri problemə çevrilmiş, dünyanın qabaqcıl ölkələrində milli kitabxanalar yaranmağa başlamışdır. Dünya miqyasında Milli Kitabxanaların təşkilinin genişlənməsi əsasən XVIII əsrin sonlarına təsadüf edir. XVIII əsrin axırlarından başlayaraq dünyanın inkişaf etmiş ölkələrində elmin, təhsilin, mədəniyyətin sürətli inkişafı, böyük universitetlərin, elmi müəssisələrin, mədəniyyət mərkəzlərinin yaranması, kitab nəşrinin böyük vüsət alması, kitaba mütaliəyə maraq göstərən təhsilli insanların çoxalması, böyük ziyalılar ordusunun formalaşması, oxucu dairəsinin genişlənməsinə, oxucuların miqdarının artması üçün əlverişli şərait yaratmışdı. Bütün bunlar isə hərtərəfli kitab fonduna, böyük maddi-texniki bazaya, kitabı sevən, onu toplayıb saxlayan, oxucuların tələb və sorğularına cavab verə bilən peşəkar kitabxanaçı heyyətinə, dövlət kitabsaxlayıcı statusuna malik olan Milli Kitabxanaların yaranmasını tələb edirdi.

Kitabxana müəssisələrin xüsusi tipi kimi Milli Kitabxanalar şəbəkəsi əsasən XIX əsrdə geniş yayılmağa başladı. Fransada, İngiltərədə, İspaniyada, ABŞ-da, Rusiyada və s. ölkələrdə milli kitabxanalar yaradıldı. Artıq XIX əsrdə dünya miqyasında böyük şəbəkəyə malik olan milli kitabxanalar bəşər elminin və mədəniyyətinin inkişafında xüsusi əhəmiyyət kəsb edən mərkəzlərə çevrildi.



Hələ böyük fransa inqilabından sonra elmi dövriyyə daxil olmuş "Milli Kitabxana" sözbirləşməsi əsas etibarı ilə kitabxananın dövlətə, millətə məxsus olmasını ifadə edir. Azərbaycan dilində də "Milli Kitabxana" istilahı kitabxananın dövlət kitabxanası olmasını, millətə məxsus olmasını ifadə edir. Məsələn: "Azərbaycan Respublikasının dövlət bayrağı", "Azərbaycan Respublikasının dövlət himni", "Azərbaycan Respublikasının Milli Kitabxanası".

Dünyanın inkişaf etmiş ölkələrində Milli Kitabxanaların XVIII əsrin axırlarından meydana gəlib formalaşmasına baxmayaraq Azərbaycanda Milli Kitabxananı yaratmaq ideyası XX əsrin əvvəllərində irəli sürmüş təəssüf ki, car Rusiyası buna imkan verməmişdi.

1918-1920-ci illərdə fəaliyyət göstərən ilk müstəqil Azərbaycan dövləti: - Azərbaycan Xalq Cümhuriyyəti də Milli Kitabxananın yaradılması haqqında qərar qəbul etsədə buna nail ola bilmədi.

# I FƏSİL

## M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANSININ YARANMASI TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

### §1.1. Milli Kitabxana XX əsrin 20-ci illərində

1920-ci il aprel ayının 28-də xalqımızın müstəqilliyi tarixində böyük rol oynayan Azərbaycan Milli Hökuməti XI Qırmızı Ordunun təziqi altında süqut etdi. Hakimiyyət bolşeviklərin əlinə keçdi. XI Qırmızı Ordu tərəfindən yaradılmış müvəqqəti İnqilab Komitəsi Azərbaycanı müstəqil Sovet Sosialist Respublikası elan etdi. Sovet hakimiyyətinin ilk illərində həyata keçirilən tədbirlər içərisində mədəniyyət, təhsil, mədəni maarif işləri mühüm yer tuturdu. Sovet hakimiyyəti mədəni quruculuğa xüsusi diqqət yetirirdi.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra hökümətin kitabxana işi sahəsində həyata keçirdiyi tədbirlər içərisində Milli Dövlət Kitabxanasının yaradılması mühüm yer tutur. 1920-ci il may ayının 24-də Xalq Maarif Komisarlığının kollegiyası Milli Kitabxananın (Dövlət Ümumi kitabxanasının) təşkili haqqında qərar qəbul etdi. Lakin kitabxananın təşkil etmək üçün bina, avadanlıq, lazimi vəsait olmadığından bu işi reallaşdıra bilmədilər. Kitabxananı təşkil etmək işi müvəqqəti dayandırıldı. Milli Kitabxananın təşkili xeyli ləngidi, təxminən 3 il sonra 1923-cü ilin may ayında kitabxananın əsası qoyuldu. Kitabxana böyük təntənəli şəraitdə oxucuların üzünə açıldı. Kitabxananın açılması Azərbaycan ziyalılarının, geniş oxucu kütləsinin, bütün Azərbaycan xalqının



bayramına çevrildi. Kitabxanaya Azərbaycan Mərkəzi Dövlət Kitabxanası statusu verildi.

Azərbaycanın paytaxtı Bakı şəhərində milli ədəbiyyatımızın, Azərbaycan kitabının qızıl fondunun yaranması, respublikamızın maarif, mədəniyyət və elmi həyatında böyük hadisə oldu, xalqımızın milli dirçəlişinin məşəli kimi parladı. Kitabxana açılarkən İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsinin və Bakı ictimai yığıncağının kitabxanasının 5 min kitabı və milliləşdirilmiş çoxlu miqdarda kitablar kitabxanaya verildi.

Milli Kitabxana 90 il müddətində olduqca şərəfli tarixi bir yol keçmiş Azərbaycan kitabının qızıl fondunu yaratmış, cəmiyyəti inkişafında baş verən bütün mədəni proseslərdə, elm və mədəniyyət xadimlərinin, yaradıcı ziyalıların bir neçə nəslinin formalaşmasında fəal iştirak etmişdir.

Milli Kitabxana biliyə, kitaba can atan geniş oxucu kütləsinin tələb və sorğularının ödənilməsinə, onların mənəvi tərbiyəsinə böyük töhfələr vermişdir.

Dövrlə, zamanla, cəmiyyətin qarşıda qoyduğu vəzifələrlə ayaqlaşmağa çalışan kitabxananın keçdiyi yol olduqca çətin, mürəkkəb, ziqzaqlı, Azərbaycan milli kitabının təbliği yolu, biliyin idarə olunması yolu olmuşdur. Kitabxananın tarixinə qısa nəzər salan müəllif bu şərəfli inkişaf yolunun mənzərəsinin canlı şahididir.

.1920-ci illər kitabxananın tarixində xüsusi mərhələ təşkil edir. Məhz bu illərdə kitabxananın maddi-texniki bazası yaradılmış, bina ilə təmin edilmiş, kitab fondunu komplektləşdirmək, fondda kitabların saxlanmasının, mühafizəsinin, təsnif və düzülüşünün elmi əsaslarını yaratmaq, kadr potensialını möhkəmləndirmək, oxuculara xidmət işinin forma və üsullarını hazırlamaq, kitabxana

kataloqları tərtib etmək, biblioqrafik fəaliyyət sahəsi yaratmaq illəri olmuşdur.

Burada göstərdiyimiz olduqca mühüm vəzifələri həyata keçirmək üçün Azərbaycan Sovet hökuməti kitabxananın stabil büdcəsini təsdiq etmiş və 1921-ci ilin axırlarına yaxın vaxtlarda açılması nəzərdə tutulan Milli Kitabxana üçün bina ayırmış, toplanan kitablar bu binaya yerləşdirilmişdi. 1922-ci ildə keçmiş Ali İqtisad Şurasının binası, 1924-cü ildə isə AMEA-nın indiki binasının bir hissəsi bu kitabxanaya verildi. Kitabxana açılarkən onun iki şöbəsi: Avropa ədəbiyyatı və Şərq şöbəsinin və fondunda 20.441 nüsxə kitab var idi. Kitabxanada cəmi 13 nəfər kitabxanaçı çalışırdı.

1928-ci ildə kitab fondu və oxucuların çoxalması ilə əlaqədar kiyabxanaya həmin binada yeni otaqlar ayrıldı. Kitabxananın bina imkanları xeyli yaxşılaşdı. Kitabxana öz fondunu yerləşdirmək və oxuculara münasib xidmət etmək imkanı qazandı.

20-ci illərdə Milli Kitabxana fondunun zənginləşdirmək üçün mühüm nailiyyətlər əldə etməyə müvəffəq oldu. 1923-cü ildən Azərbaycan, 1924-cü ildən isə SSRİ-də nəşr edilən kitablardan məcburi nüsxələr almağa başladı. Kitabxananın məcburi nüsxələr alması onun fondunun ardıcıl, plana uyğun komplektləşdirilməsini təmin etdi. Kitabxana 20-ci illərdə milliləşdirilmiş kitablar və hədiyyələr hesabına öz fondunu komplektləşdirməyə milli ədəbiyyat fondunu zənginləşdirməyə və nadir kitablar fondu yaratmağa nail oldu. Bu dövrdə, kitabxananın maliyyələşdirilməsinin ilbəil artırılması kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsinə və kadr potensialının artırılmasına şərait yaratdı. Dövlət kitabxananın büdcəsinin artırılmasına xüsusi diqqət yetirirdi. Kitabxananın büdcəsi 1925-1926-cı illərdə 21.680 manata,



1926-1927-ci illərdə 25360 manata, 1927-1928-ci illərdə 3544 manata, 1930-cu ildə 56000 manata, 1931-ci ildə isə 89763 manata çatdırılmışdı.

Kitabxananın maliyyələşdirilməsinin ilbəil artırılması, SSRİ-dən və respublikadan daxil olan məcburi nüsxələrin qaydaya salınması, kitabxanaya bağışlanan kitab kolleksiyalarının çoxalması kitabxana fondunun artımına şərait yaratdı. Kitabxana fondunun dinamik inkişafını izləmək üçün aşağıda rəqəmlərə diqqət yetirək. Kitabxananın fondunda 1923-cü ildə 20441 kitab, 1925-ci ildə 51600 kitab, 1930-cu ildə 400000 artıq kitab olmuşdur. Cəmi 7 il müddətində kitabxana fondu 20 dəfəyə qədər artmışdır. O dövr üçün bu olduqca böyük rəqəm idi.

Kitab fondu ilə yanaşı olaraq kitabxana öz fondunu qəzet və jurnallarla da zənginləşdirirdi. Kitabxana respublikada nəşr edilən bütün mərkəzi qəzetləri və SSRİ-də nəşr edilən bütün mərkəzi qəzetləri əldə etməyə müvəffəq olmuşdu. Kitabxanada yaranan jurnal fondu daha zəngin idi. Respublikanın bütün elm adamları bu fonddan istifadə etməyə üstünlük verirdilər. Kitabxana 20-ci illərin axırlarında SSRİ-də nəşr edilən jurnallarla yanaşı 50 adda xarici jurnal alırdı ki, bu da onun beynəlxalq əlaqələrinin genişlənməsi üçün şərait yaradırdı.

Milli Kitabxananın fəaliyyətində oxuculara xidmət işinin təşkili, onların sorğu və tələbatının ödənilməsi də ön planda olmuşdur. 20-ci illərin əvvəllərində kitabxananın oxucu dairəsinin formalaşması, onların tərkibinin müəyyənləşdirilməsi, xidmətin forma və üsullarının tənzimlənməsi müəyyən mübahisələrə səbəb olsa da kitabxana fəal oxucuların, yaradıcı ziyalıların məsləhəti və köməyi ilə bu işin öhdəsindən gəlməyə müvəffəq oldu. Kitabxana 20-ci illərin əvvəllərindən abonement vasitəsi ilə oxuculara xidmət edirdi. Kitabxanaya oxucuların intensiv axını

başlamışdı. Oxucular sırasında fəhlələr, kəndlilər, yuxarı sinif şagirdləri, tələbələr, ziyalılar, alimlər və s. ixtisas sahibləri çoxluq təşkil edirdi. Müxtəlif zümrədən olan oxuculara xidmətin forma və üsullarını müəyyənləşdirmək üçün aparılan araşdırmalar, əldə edilən nəticələr, tövsiyələr kitabxananın işinə böyük uğurlar qazandırdı. Oxuculara xidmətin keyfiyyətinin yaxşılaşdırılması onların miqdarının artmasına gətirib çıxardı. Kitabxananın 1923-cü ildə 1000 nəfərə qədər oxucusu, 1925-ci ildə 3193 nəfər oxucusu var idisə, onların sayı 1930-cu ildə 5638 nəfərə çatdı. Oxuculara xidmət işində böyük keyfiyyət dəyişiklikləri baş vermiş, oxucuların mütaliəsinə rəhbərlik, fərdi və biblioqrafik xidmət sahəsində ilk addımlar atılmağa başlanmış kitabxanalararası abonementdən istifadə qaydaya salınmışdı. 20-ci illərdə kitabxana respublika kitabxanalarının elmi-metodik mərkəzinə çevrilmiş, kitabxanaşünaslığa dair ilk elmi-metodiki əsərlər, biblioqrafik göstəricilər tərtib edilməyə başlamışdı. Kitabxananın tərtib etdiyi biblioqrafik göstəricilər: "Şərq incəsənəti", "Şərqdə qadın hərəkatı", "Qafqaz xalqları", "Şərqə dair kitablar" və s. ciddi maraq doğururdu.

Beləliklə, 20-ci illər Milli Kitabxananın həyatında dönüş mərhələsu olmuşdur. Çətin və mürəkkəb olan bu mərhələdə kitabxananın əsası qoyulmuş, təşəkkül tapıb inkişaf etmiş, maddi-texniki bazası möhkəmlənmiş Azərbaycan qızıl fondu olan kitabxana fondu yaradılmış, məlumat-axtarış sistemi yaranmış, kitabxananın strukturunda elmi əsaslara söykənən dəyişiklik aparılmış, geniş oxucu dairəsi formalaşmışdır.

Qısa zaman kəsiyində cəmisi səkkiz ildə kitabxananın fondu 10 dəfədən çox, oxucuları 4 dəfə, kitab verilişi isə 4 dəfədən çox artaraq böyük elm və mədəniyyət məbədgahına çevrilmişdir.



## §1.2. Milli Kitabxana XX əsrin 30-cu illərində

30-cu illərdə Sovet hakimiyyətinin ilk illərində və bərpa dövründə savadsızlığın ləğvi, xalq maarifinin inkişafı, ali məktəblərin və elmi müəssisələrin yaradılması yeni yüksək səviyyəli oxucu kontingentinin formalaşması qarşıda böyük vəzifələr qoymuşdu. Kitabxana kütləvi oxucularla yanaşı olaraq, elmi-tədqiqat institutunun alimlərinə, ali məktəblərin professor-müəllim heyətinə, tələbələrə xidmət etməli idi. Bütün bunlar isə Milli Kitabxanada oxuculara xidmət işinin yenidın qurulmasını, xidmət prosesinə yeni iş forma və metodlarının tətbiqini, xidmət prosesinin keyfiyyətcə yeni səviyyəyə qaldırılmasını tələb edirdi.

Həmcinin ölkədə gedən sinfi mübarizənin dərinləşməsi kitabxana işinin siyasiləşməsini və ideoloji təbliğat işi ön plana çəkilməli idi.

30-cu illər həmçinin zəhmətkeşlərin mədəni quruculuq işlərinə daha intensiv səfərbər edilməsi, Azərbaycan cəmiyyəti üçün milli yaradıcı qüvvələrin meydana gəlməsi və inkişaf etməsi, zəhmətkeşlərin yeni inkişaf etmiş həyat uğrunda mədəni geriliyə qarşı mübarizəyə qoşulması dövrü kimi xarakterizə olunur. Bu dövr mədəniyyətimizin qızıl fondu olan Milli Kitabxananın fəaliyyətində də böyük dönüşün başlanması, kitabxana işinin daha da təkmilləşməsi, əhaliyə, xüsusilə kitabxa-naya gələn yeni yüksək səviyyəli oxuculara xidmət sahəsində səmərəli keyfiyyət dəyişikliklərinin baş ver-məsi dövrü idi. Azərbaycan dövləti Milli Kitabxananın qarşısında duran, olduqca böyük həyati əhəmiyyət daşıyan vəzifələrin həlli üçün kitabxananın maddi-texniki bazasının güclənməsinə, fondunun daha qiymətli nəşrlərlə komplektləşdirilməsinə, oxuculara xidmət prosesində yeni, daha mütərəqqi

metodların tədbiqinə, kadr potensialının daha da təkmilləşməsinə xüsusi diqqət yetirirdi. Kitabxana işinə dair qəbul edilmiş bir çox dövlət sənədlərində bu məsələlərin həllinə ciddi qayğı göstərilirdi.

Hər şeydən əvvəl 30-cu illərdə kitabxananın maddi-texniki bazasının yüksəlməsində dövlət büdcəsinin ilbəil artması olduqca böyük əhəmiyyət kəsb etdi. Aşağdakı rəqəmlərə diqqət yetirək: 1930-cu ildə – 56000 manat, 1935-ci ildə – 218500 manat ayrılmış, bu rəqəm 1940-cı ildə – 359760 manata çatmışdı.

Bu rəqəmlərdən göründüyü kimi, 30-cu illərdə kitabxananın büdcəsi beş dəfədən çox artmışdır. Kitabxananın işçilərinin sayı isə 30-cu illərdə iki dəfədən çox artaraq 70 nəfərə çatmışdı ki, bunların da 50 nəfəri bilavasitə kitabxanaçılar idi. Kitabxanaçı kadrların tərkibində də böyük keyfiyyət baş vermiş, kitabxanaçı kadrlar sırasında orta və ali təhsilli kitabxanaçıların sayı çoxalmışdı.

30-cu illərdə Milli Kitabxananın fəaliyyətində oxuculara kitabxana xidmətinin təşkili mühüm dövlət əhəmiyyətli bir məsələyə çevrilmişdi. Kitabxana oxucularının say tərkibinin dəyişməsi və təhsil səviyyəsinin yüksəldilməsi ilə əlaqədar olaraq onların tələb və sorğularının məzmununda da böyük keyfiyyət dəyişikliyi baş vermişdi. Kitabxananın oxucuları sırasında alimlərin, elmi-tədqiqat müəssisələri işçilərinin, yaradıcı ziyalıların, ali məktəb tələbələrinin sayı artmışdı. Yəni oxuculara xidmət yeni iş formaları və metodları tələb edirdi.

30-cu illərdə kitabxana oxucularının miqdarı demək olar ki, 2 dəfə artmışdı. Əgər kitabxana 1930-cu ildə 3323 nəfər oxucuya xidmət etmişdisə, 1935-ci ildə 6585 nəfər, 1940-cı ildə 8800 nəfər olmuşdu. Kitabxana oxuculara abonement və qiraət zalları ilə yanaşı kitabxanalararası abonement və filiallar vasitəsi ilə də xidmət edirdi. 1940-cı



ildə kitabxanalararası abonement vasitəsi ilə 800 artıq oxucuya xidmət edilmişdi.

30-cu illərdə Milli Kitabxanada oxucularının sayının artması və oxuculara səmərəli xidmət göstərilməsi kitab verilişinin sürətlə artmasına əhəmiyyətli təsir göstərmişdi. Əgər kitabxana 1930-cu ildə oxuculara 60554 nüsxə kitab vermişdisə, bunların sayı 1938-ci ildə 77.173 nüsxəyə, 1940-cı ildə isə 150.000 nüsxəyə çatmışdı. Kitab verilişinin iki dəfə artması kitabxana kollektivinin böyük və mütəşəkkil işi hesabına başa gəlmişdi.

30-cu illərdə respublikada sinfi mübarizənin kəskinləşməsi cəmiyyət daxilində siyasi gərginliyin artmasına, cəmiyyətdə siyasiləşmənin güclənməsinə səbəb olmuşdu. Bu mübarizədə kitabxanalar yaxından iştirak etməyə, siyasi ədəbiyyatla aparılan işi gücləndirməyə, kitabxanaları siyasi ədəbiyyatla təkmilləşdirməyə və siyasi ədəbiyyatın təbliğini ön plana çəkməyə vadar edilirdi. Milli Kitabxana bu işdə öncül mövqe tutmaqla partiya və hökumətin bu sahədə olan qərar göstərişlərini yerinə yetirik və respublika kitabxanalarının elmi-metodik mərkəzi kimi metodik sənədlər hazırlayıb rayon və kənd kitabxanalarına göndərirdi. Həmçinin Milli Kitabxanada 1932-ci ildə məsləhət bürosu yaradılmış, büronun tərkibinə 16 nəfər elmi işçi daxil edilmişdi. Büronun tərkibinə daxil olan professorlar müəyyən vaxtlarda oxucuların suallarını cavablandırı, onlara elm və mədəniyyətin müxtəlif sahələrinə dair məsləhətlər verirdilər.

Milli Kitabxana 30-cu illərdə böyük kütləvi mədəni-maarif və siyasi tərbiyə işləri aparırdı. Oxucu konfransları, kitab sərgiləri, görkəmli şəxslərlə görüşlər keçirilməsi və oxucuların belə tədbirlərdə iştirakı müntəzəm xarakter almışdı.

30-cu illərdə Milli Kitabxananın fəaliyyətində gözəçarpan işlərdən biri də kitabxananın kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq sahəsində elmi-metodik mərkəzə çevrilməsi olmuşdur. Kitabxanada kadr potensialının güclənməsi onun elmi-metodik mərkəzə çevrilməsi üçün şərait yaratmışdı. Kitabxanada bu mühüm işin həyata keçirilməsində 1936-cı ildə yaradılmış kitabxanaşünaslıq kabinəsinin böyük rolu olmuşdur. Bu kabinə kitabxanaşünaslığın ilk elmi mərkəzi idi. Kabinənin qarşısında respublika kitabxanalarının iş təcrübəsinin öyrənilib ümumiləşdirilməsi və yayılması, kitabxanaşünaslıq və biblioqrafiyaya dair araşdırmalar aparmaq, metodik vasitələr, tövsiyyələr hazırlamaq və kitabxanalara metodiki rəhbərlik etmək vəzifəsi qoyulmuşdu.

Kitabxanaşünaslıq kabinəsi həmçinin Maarif Komisarlığının kitabxana şəbəkələrində çalışan kitabxanaçılar üçün vaxtaşırı ixtisasartırma kursları təşkil edirdi. Kabinə öz fəaliyyəti dövründə kütləvi kitabxanalar üçün onluq təsnifat cədvəlini 9 çap vərəqi həcmində çap etmiş, kitabxana texnikasına aid 9 adda uçot-hesabat forması tərtib etmişdi.

Kabinə həmçinin Bakı Kitabxanaçılıq Texnikumunun tələbələri və vaxtaşırı təşkil edilən qısamüddətli kursların dinləyiciləri üçün kitabxana işinin müxtəlif sahələrinə dair rus dilindən ədəbiyyat tərcümə etməyə müvəffəq olmuşdur. Çox təssüf ki, fəaliyyət göstərdiyi iki il müddətində olduqca əhəmiyyətli işlər görməsinə baxmayaraq kabinə 1939-cu ildə Maarif Nazirliyinə verildi və çox keçməmiş öz fəaliyyətini dayandırdı. Milli Kitabxana 30-cu illərin sonu - 40-cı illərin əvvəllərində yeni həyat quruculuğunun yaradıcılıq coşğunluğunu, eləcə də o illərin ictimai həyatının dərin ziddiyətlərini yaşayaraq çətin şəraitdə fəaliyyət göstərmək məcbiriyyətində qalmışdır.



Beləliklə, 30-cu illər Milli Kitabxananın tarixində olduqca əlamətdar illər olmuşdur. Məhz bu illərdə kitabxananın maddi-texniki bazası möhkəmlənmiş, kitabxana fondu həm kəmiyyət, həm də keyfiyyətcə inkişaf edib təkmilləşmiş, oxuculara xidmətin təşkili işində yeni forma və üsullar meydana gəlmiş, oxucuların tərkibində böyük keyfiyyət dəyişikliyi baş vermişdir.

30-cu illərdə kitabxananın apardığı böyük elmi-metodik və kütləvi işlər, oxuculara kitabxana xidmətinin günün tələbləri səviyyəsinə qaldırılması, respublika elminə, mədəniyyətinə, təhsilinə əvəzsiz xidmət göstərməsi onun Milli Kitabxana, Dövlət Kitabxanası kimi formalaşmasını təmin etmişdir.

Azf - 276/91

Azərbaycan sovet hökuməti kitabxananın fəaliyyətini olduqca yüksək qiymətləndirir, yeganə dövlət kitab saxlayıcısı kimi onun fəaliyyətinin təkmilləşdirilməsinə və nufusunun qaldırılmasına böyük diqqət yetirirdi. 1939-cu ildə kiabxanaya xalqımızın böyük oğlu, görkəmli filosof, dramaturq, ictimai xadim M.F.Axundovun adının verilməsi bu dediklərimizə parlaq subutdur.

## §1.3. Milli Kitabxana XX əsrin 40-cı illərində

30-cu illərin axırında Milli Kitabxana öz inkişafının yeni böyük inkişaf mərhələsinə, kitabxana fəaliyyətində daha dərin keyfiyyət dəyişikliklərinin baş verməsi mərhələsinə qədəm qoymuşdu. Belə bir şəraitdə 1941-ci il iyun ayının 22-də faşist Almanyası qəflətən SSRİ-nin üzərinə hücuma keçdi. Böyük Vətən müharibəsi başlandı. Müharibənin ilk günlərindən başlayaraq bütün ölkə faşist ordusunun hücumunu dəf etmək üçün ayağa qalxdı. Bütün sovet xalqı, dövlət müəssisələri, o cümlədən mədəni-



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

maarif müəssisələri partiyanın "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" çağırışına qoşuldu.

M.F.Axundov adına Milli Kitabxana öz işini müharibənin qarşıya qoyduğu vəzifələri yerinə yetirmək uğrunda mübarizəyə həsr etdi. Elə müharibənin ilk günlərində kitabxana əməkdaşlarının mitinqi keçirildi. Mitinq bütün qüvvələri qələbə uğrunda mübarizəyə həsr etməyi qərara aldı.

Milli Kitabxana respublika zəhmətkeşlərinə vətənpərvərlik hissləri aşılamaq, xalqımızın qəhrəman keçmişinə, sovet ordusunun hərbi müvəffəqiyyətlərinə, cəbhədə və arxada göstərilən qəhrəmanlıqlara dair ədəbiyyatı təbliğ etmək, əhalinin hərbi biliklərə yiyələnməsinə kömək etmək, hərbi müdafiə ədəbiyyatını yaymaq, xalq təsərrüfatının müdafiə sənayesinin inkişaf etdirilməsinə, əhaliyə yeni ixtisaslara yiyələnməkdə kömək etmək kimi mühüm vəzifələri həyata keçirirdi. Kitabxana həmçinin oxucuların ideya-siyasi tərbiyəsinə, dövlət qərarlarının və göstərişlərinin təbliğinə, sovet məlumat bürosunun xəbərlərinin vaxtında oxuculara çatdırılmasına xüsusi diqqət yetirirdi.

Milli Kitabxana müharibə şəraiti ilə qarşıya çıxan hər cür çətinliklərə baxmayaraq ənənəvi fəaliyyətini müvəffəqiyətlə davam etdirirdi. Kitabxana fondunun komplektləşməsi, xüsusi ilə müharibə ilə bağlı ədəbiyyat alınması, oxuculara xidmət işinin yaxşılaşdırılamsına yeni iş forma və üsullarından istifadə edilməsinə xüsusi diqqət yetirirdi. Beləki müharibənin ağır şəraitinə baxmayaraq kitabxana 1941-1945-ci ildə 233.240 nüsxə kitab almağa müvəffəq olmuş, 40 mindən artıq oxucuya xidmət etmiş, onlara bir milyon nüsxədən artıq kitab və dövri mətbuat vermişdir. Müharibə illərində kitabxanaların faəliyyətində ən mühüm yerlərdən birini döyüşən orduya ədəbiyyat göndərmək və Bakıda yerləşən hərbi hospitallarda müalicə olunan



əsgərlərə xidmət etmək işi də mühüm yer tutmuşdur. Kitabxana bu illərdə bir hərbi qospitalı hamiliyə götürmüş, həmçinin bir necə hospitallarda kitabla xidmət etmişdir. Qospitallara kitab və dövrü mətbuatla xidmət etmişdir. Həmçinin müharibə illərində kitabxananın kollektivi döyüşən orduya və hərbi hospitallara maddi yardım göstərməsi də diqqətə layiqdir.

Böyük Vətən müharibəsi illərində Milli Kitabxana kollektivinin fədakar əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmiş, kitabxananın 20 nəfərdən artıq işçisi Böyük Vətən müharibəsində (1941-1945-ci illər) "Rəşadətli əməyinə görə" medalı ilə təltif edilmişdir.

Böyük Vətən müharibəsi qələbə ilə başa çatdıqdan sonra xalqımız dinc quruculuq dövrünə qədəm qoydu. Ölkəmizin qarşısında müharibənin vurduğu böyük zərərləri aradan qaldırmaq xalq təsərrüfatını bərpa və inkişaf etdirmək, elm, təhsil və mədəniyyətin bütün sahələrində aparılan geniş quruculuq işlərində yaxından iştirak etmək vəzifəsi qoyulmuşdu.

Müharibədən sonrakı bərpa və quruculuq illəri Milli Kitabxananın qarşısında müharibə illərində həlli mümkün olmayan problemlərin kitabxananın maddi-texniki bazasının mühkəmləndirilməsi, yeni avadanlıqla təmin edilməsi, kitabxana fondunun dövrün tələblərinə, kitabxananın ətrafında formalaşan oxucuların sorğularına uyğun təkmilləşdirməsi, kitabxana kataloqlarının və digər soraq-məlumat aparatının qaydaya salınması, yeni daha ixtisaslı, peşəkar kadrlarla təmin edilməsi, kitabxananın elmi-metodiki mərkəz səviyyəsinə qaldırılması və s. mühüm vəzifələr qoyulmuşdu. Kitabxana ilk növbədə fonda daxil olmuş, lakin kitabxana qaydası ilə işlənməmiş kitabları nəzərdən keçirdi, onu oxucuların istifadəsi üçün tam hazır vəziyyətə gətirməyə nail oldu. Kitabxana məcburi

nüsxələrin alınmasını qaydaya salmaq üçün ittifaq təşkilatlarına müraciət etdi. 1948-ci ildən başlayaraq SSRİ-də rus dilində nəşr edilən kitabların alınması qaydaya salındı. Kitabxana Azərbaycan dilində fondun komplektləşməsi üçün bir sıra ciddi tədbirlər həyata keçirdi və 40-cı illərin sonlarında bu məsələ demək olar ki, öz həllini tapdı. Kitabxanada soraq-məlumat fondunun yaradılması üçün mühüm tədbirlər görüldü. Fond yeni soraq-məlumat ədəbiyyatı ilə biblioqrafik nəşrlərlə təkmilləşdi. SSRİ milli kitabxanalarından xeyli soraq-məlumat ədəbiyyatı gətirildi və soraq məlumat şöbəsi müxtəlif ixtisaslara malik yüksək səviyyəli kadrlarla təmin edildi. Həmçinin kitabxananın elmi-metodik fəaliyyəti qaydaya salındı. Kitabxana biblioqrafik göstəricilərin nəşrini genişləndirməyə başladı.

Hər şeydən əvvəl Milli Kitabxana öz fondunu qaydaya saldı. Fond köhnəlmiş, öz əhəmiyyətini itirmiş kitablardan təmizləndi. Kitabxana məcburi nüsxələrlə komplektləşməyi qaydaya salınmaqla yanaşı zəruri kitabların yeni nüsxələrinin və nadir kitabların alınmasına xüsusi diqqət yetirirdi. Kitabxana müharibədən sonrakı 4 il müddətində 800 min nüsxə ədəbiyyat almağa müvəffəq olmuşdu. Kitabxana fondu 1950-ci ildə 1 milyon 900 min nüsxəyə çatdırılmışdır ki, bu da 1945-ci ildən xeyli çox idi. Respublikamızda elmin təhsilin inkişafı və texniki tərəqqi ilə əlaqədar formalaşan yeni oxuculara xidmət üçün kitabxananın məlumat biblioqrafiya işini yenidən qurmaq, informasiya xidmətinin daha da təkmilləşdirmək məqsədi ilə 1946-1951-ci illərdə kitabxananın kataloq sistemi ciddi redaktə edilmiş kataloqlar kitabxanaya yeni daxil olan kitabların kartotekaları ilə zənginləşmişdi. Xüsusilə sistemli kataloqun ictimai-siyasi, tarix, fəlsəfə, iqtisadiyyat, ədəbiyyatşünaslıq, incəsənət və s. şöbələri yenidən qurulmuşdu. Müharibədən sonrakı illərdə ən



böyük yeniləşmə oxuculara xidmət sahəsində baş verdi. Bu əsasən kitabxana oxucuları sırasında elmi-tədqiqat müəssisələri işçilərinin, alimlərin, mütəxəssislərin, mühəndislərin və idarəetmə orqanlarının işçiləri ilə əlaqədar idi. Kitabxananın müharibədən sonrakı fəaliyyəti göstərir ki, bu illər kitabxana oxucularının miqdarca artdığı, tərkibinin keyfiyyətcə təkmilləşdiyi illər olmuşdur. Kitabxana 6 il müddətində 40 minə yaxın oxucuya xidmət etmiş, hər il orta hesabla oxuculara 300 mindən artıq ədəbiyyat vermişdi. Oxucuların tərkibində də keyfiyyət dəyişikliyi baş vermişdi. Əgər 1948-ci ilə qədər kitabxananın oxucularının əksəriyyətini ali və orta ixtisas məktəblərinin tələbələri təşkil edirdisə, 1950-ci ildə oxucuların 35 faizi elmi-tədqiqatla məşğul olan oxucular olmuşdur. Müharibədən sonrakı illərdə kitabxananın fəaliyyətinində elmi-metodik, nəşriyyat və kütləvi işlərin aparılması geniş vüsət almışdı. Bu da bilavasitə oxuculara xidmətin keyfiyyətinə əhəmiyyətli təsir göstərirdi. Kitabxana 40-cı illərin axırlarında 150 mövzu sərgisi, 100 yeni kitabların sərgisini təşkil etmiş, 50 kütləvi tədbir, oxucu konfransları, biblioqrafik icmallar həyata keçirilmiş, oxuculara verilən məsləhətlərin, tərtib edilən tövsiyələrin miqdarı 2 dəfədən çox artmışdı.

Milli Kitabxana 1943-1950-ci illərdə oxuculara 80 min şifahi və 150 yazılı məlumat vermiş, 180 tövsiyə siyahısı tərtib etmişdi. Kitabxananın yeni məlumat bülleteni buraxması oxuculara xidmət işinin keyfiyyətinə müsbət təsir göstərirdi. Kitabxana təkcə 1951-ci ildə məlumat bülletenin 11 nömrəsini buraxmağa müvəffəq olmuşdu. 40-cı illərin axırında kitabxananın fəaliyyətində idarə və təşkilatlara yeni kitablar haqqında yazılı məlumat vermək və elmi işçilərə fərdi xidmət göstərmək kimi yeni işlər böyük əhəmiyyət kəsb etdi. Kitabxananın fəaliy-

yətində elmi-metodik işin daha da canlanması prosesi baş verdi. 1948-ci ildə kitabxananın strukturuna yeni şöbə - "Kitabxanaşünaslıq və tövsiyə biblioqrafiyası kabinəsi" daxil edildi. Tezliklə kitabxanaşünaslığın müxtəlif sahələrinə dair elmi araşdırmalar aparmağa, tövsiyə biblioqrafik materialları hazırlamağa və kitabxananın böyük şöbələrində aparılan elmi işləri mərkəzləşdirməyə müvəffəq oldu. Kabinə təkcə 1949-1950-ci illərdə rayon və şəhər kütləvi kitabxanalarına 35 metodik məktub göndərmiş, 15-dən artıq elm və mədəniyyət xadimlərinin, görkəmli yazıçı və şairlərin biblioqrafiyasını hazırlamağa müvəffəq oldu. Kitabxana həmçinin kitabxanaşünaslığın və biblioqrafiyanın nəzəri və metodik məsələlərinə dair konfranslar və seminarlar keçirməyə başlamışdır ki bu da respublikada kitabxanaşünaslıq elminin inkişafına müsbət təsir edirdi.

Beləliklə, 40-cı illərin sonları kitabxananın həyatında bərpa və inkişaf illəri kimi özünü doğrultdu.

Ölkəmizdə müharibədən sonrakı beşillik dövründə M.F.Axundov adına Milli Kitabxana müharibədən doğan nöqsanları, çatışmazlıqları aradan qaldırdı, kitabxananın normal iş ritmini bərpa və inkişaf etdirməyə müvəffəq oldu. Bütün zəruri şəraitin yaradılması kitabxananın 50-60-cı illərdə daha səmərəli fəaliyyəti üçün zəmin hazırladı.

## §1.4. Milli Kitabxana XX əsrin 50-60-cı illərində

XX əsrin 50-60-cı illərində Milli Kitabxana ölkəmizdə elmin, təhsilin, mədəniyyətin inkişafı fonunda daha da təkmilləşdi, maddi-texniki bazası möhkəmləndi. İlbəil kitabxanaya ayrılan dövlət vəsaitinin artırılması kitabxana fondunu daha ardıcıl və daha məqsədyönlü komplektləşdirməyə, kitabxanaya ölkə daxilindən və xarici ölkələrdən nadir kitablar almağa, qiymətli soraq-məlumat ədəbiyyatı



əldə etməyə şərait yaratdı. Kitabxananın daha müasir avadanlıqlarla təmin edilməsi, yeni texniki vasitələri əldə etməsi onun simasını tamamilə dəyişmiş, kitabxananın oxu zallarında oxucular üçün əlverişli şərait yaratmışdı. Kitabxananın fondunda Azərbaycan dilində ədəbiyyatın azlığını nəzərə alan kitabxana fondunun təkmilləşdirilməsi üçün yeni layihə hazırlamış, fondda olmayan kitabların siyahısını tərtib etmiş və bu işi yerinə yetirmək üçün işçi qrupu ayırmışdı. 50-60-cı illərdə kitabxana fondunun komplektləşməsini nəzərdən keçirmək üçün rəqəmlərə diqqət yetirək.

Əgər 1950-ci ildə Milli Kitabxananın fondunda bir milyona yaxın ədəbiyyat var idisə, 1960-cı ildə bu rəqəm 2584424 yüksəlmişdi. Kitabxananın Azərbaycan dilində kitab fondunun artımı isə 1950-1959-cu illərdə 14000 nüsxə artaraq 1960-cı ildə 70 min nüsxədən artıq olmuşdur. 50-60-cı illərdə "Azərbaycan kitabı" arxiv fondunun fəaliyyətində də canlanma baş vermiş, fonda hər il orta hesabla 1400 adda kitab daxil olmuşdur. Kitabxana oxucularının xarici dillərdə kitab almağa diqqəti artmışdı. Hər il kitabxanaya 1000 nüsxədən artıq xarici dildə kitab alınırdı ki, bunun da 90-95% Avropa dillərində idi. 50-60-cı illərdə kitabxananın fəaliyyətində ən böyük dönüş oxuculara xidmət sahəsində baş vermişdir. Kitabxana fondunun daha da təkmilləşdirilməsi, kitabxananın kadr potensialının keyfiyyətcə yüksəlməsi, oxuculara xidmətin təşkili üçün yeni filialların, şöbələrin yaranması, kitabxananın məlumat-biblioqrafiya şöbəsinin işinin canlanması bu mühüm işin daha uğurla inkişafını təmin etmişdi. Oxuculara xidmətin təşkilində kitabxanalararası abonement şöbəsinin fəaliyyətin də diqqətə layiq idi. Fikrimizə aydınlıq gətirmək üçün rəqəmlərə müraciət edək. Əgər 1950-ci ildə kitabxananın fondunda 856209 kitab var idisə,

bunların sayı 1953-cü ildə 1324767 nüsxəyə çatmışdı. Təxminən kitabxananın fondu 468498 nüsxə atrmışdı. Oxuculara xidmətin təşkilində də ciddi dönüş yaranmışdı. Kitabxananın oxucularının miqdarı artmaqla yanaşı oxuclara verilən kitabların sayı da əhəmiyyətli dərəcədə artmışdı. Oxucuların tərkibində də böyük keyfiyyət dəyişiklikləri baş vermişdi. Kitabxananın oxucuları sırasına akademiklərin, elmlər doktorlarının, professorların, elmlər namizədlərinin miqdarı əhəmiyyətli dərəcədə artmışdı.

Əgər 1950-ci ildə kitabxana 5480 nəfər oxucuya xidmət etmiş, onlara 322000 adda kitab verilmişdi. Bu rəqəm müvafiq olaraq 1959-cu ildə 7221-ə, kitab verilişi isə 412199 nüsxə olmuşdur. Beləliklə; 1951-1959-cu illərdə Milli Kitabxana 63253 oxucuya xidmət etmiş, onalara 3657426 nüsxə kitab vermişdir. 60-cı illərdə kitabxana respublikada meydana gəlmiş iqtisadi böhrana baxmayaraq öz inkişaf tempini çətinliklə də olsa davam etdirmişdir. Həm kitab fondunun artımında, həm də oxuculara xidmət işinin təşkilində mühüm irəliləyişlər davam etmişdir. Kitabxana yeni açdığı filiallar vasitəsi ilə bilavasitə istehsalata xidmət etməyə başlamışdı. Kitabxana 1952-ci ildə Bakı Neftayırma Zavodunda, 1953-cü ildə Qaracuxur Mədəniyyət sarayında, 1954-cü ildə Neft Daşlarında, 1947-ci ildə Mingəcevirdə filiallar təşkil etməyə müvəffəq olmuşdur.

60-cı illər Milli Kitabxananın fəaliyyətində beynəlxalq əlaqələrin getdikcə möhkəmləndirilməsi illəri kimi xarakterizə olunur. Kitabxana 1964-cü ildə SSRİ-nin 63, dünyanın isə 6 kitabxanası ilə, o cümlədən Avstriya, Fransa, AFR və s. ğlkələrlə beynəlxalq kitab mübadiləsi etmiş, mübadilə yolu ilə 10 mindən çox ədəbiyyat almışdı.

60-cı illərdə kitabxananın fəaliyyətində daha çox diqqəti cəlb edən bütün şöbələrin fəaliyyətindən qızıl xətt



kimi keçən proses oxuculara kitabxana xidmətinin təşkilinin və kitabxananın elmi və biblioqrafik fəaliyyətinin ön plana çəkilməsi olmuşdur. Sanki kitabxana öz qarşısına, "hər şey oxucu üçün" vəzifəsini qoymuşdu. Hər şeydən əvvəl oxucunun informasiya tələbatının ödənilməsi ön plana çəkilmiş, oxucuların tələb və sorğularının tam ödənilməsi əsas məqsədə çevrilmişdi. Bunun üçün kitabxananın strukturunda dəyişikliklər aparıldı, ştat cədvəli yeniləşdi, yeni bölmələr yaradıldı. 60-cı illərin ikinci yarısında kitabxananın məlumat-biblioqrafiya şöbəsi "Diyarşünaslıq və milli biblioqrafiya" və "Soraq-biblioqrafiya" şöbələrinə çevrildi. "Diyarşünaslıq və milli biblioqrafiya" şöbəsinin yaradılması azərbaycanşünaslığın inkişafına, milli şüurun formalaşmasına, Azərbaycana aid yeni biblioqrafik göstəricilərin yaranmasını təmin etdi. Yeni şöbələrin yaranması oxucuların informasiya tələbatının ödənilməsində də yeni mərhələ oldu. Belə ki, kitabxana 1966-cı ildə oxuculara 6436, 1970-ci ildə isə 23092 biblioqrafik arayış vermişdi.

1960-cı ildə Milli Kitabxananın tarixində olduqca əlamətdar bir hadisə baş verdi. Kitabxana uzun illərdən bəri gözlədiyi yeni binaya köçdü. Yeni binanın istifadəyə verilməsi kitabxananın gələcək inkişafı üçün böyük perspektivlər açdı. Xalqımızın görkəmli memarı akademik M.Hüseynovun layihəsi ilə tikilmiş bu bina keçmiş SSRİ-də ilk və əzəmətli, Azərbaycan memarlığının son nailiyyətlərindən biri, yüksək arxitekturaya malik qiymətli bir abidə idi. 8730 kv. metr sahəsi olan bu nəhəng bina 25 milyon nüsxədən artıq kitab üçün nəzərdə tutulmuşdu. Kitab-xanada ümumi oxu zalı ilə yanaşı bir neçə ixtisaslaşdırılmış oxu zalları var idi. Bu zallarda eyni zamanda 750 oxucunun istifadə etmək imkanı var idi. Kitabxananın yeni binaya köçməsi onun oxuculara fərdi xidmət etmək

imkanını artırdı. Müxtəlif qrup oxuculara xidmət etmək üçün kitabxanada 11 şöbə, 6 bölmə yaradılmışdı. Kitabxana işçilərinin sayı 235 nəfərə çatmışdı.

Beləliklə, 60-cı illərdə Milli Kitabxana 50-ci illərdə əldə edilmiş elmi-metodik uğurlara söykənərək kitabxanaşünaslığın elmi mərkəzi kimi də formalaşmış, sanballı elmi-metodik əsərlər yaratmağa, elmi konfranslar, elmi seminarlar, metodik müşavirələr keçirməyə nail olmuşdu.

Milli Kitabxananın 1963-cü ildə nəşr etdirdiyi "Azərbaycan kitabı" (I cild 1780-1920-ci illər) monumental biblioqrafik əsər kimi kitabxananın elmi-tədqiqat fəaliyyətinə bir hədiyyə idi. 1963-cü ildə kitabxana Azərbaycan kitabının birinci cildinə daxil olmayan 500 kitab aşkar edib elmi dövriyyəyə daxil etmişdi. Kitabxana 60-cı illərdə kitabxanaşünaslığın ayrı-ayrı sahələrinə - kitabxana tarixi, kitabxana fondu, kitabxana kataloqları, məlumat axtarış sistemləri, kitab tarixi və s. problemlərə dair tədqiqatlar aparmağa başlamışdı. Kitabxana respublika kitabxanalarına metodik rəhbərlik çərçivəsində qabaqcıl kitabxanaların iş təcrübəsini ümumiləşdirən elmi-metodik vəsaitlər də hazırlayıb nəşr etdirirdi.

## §1.5. Milli Kitabxana XX əsrin 70-80-ci illərində

70-80-ci illər Milli Kitabxananın həyatında dönüş mərhələsi olmuşdur. XX əsrin 60-cı illəri SSRİ məkanında inkişaf etmiş sosializm illəri adlanmasına baxmayaraq, Azərbaycan iqtisadi inkişaf cəhətdən geridə qalmış respublikalardan biri hesab edilirdi. Respublikada baş verən bu iqtisadi gerilik ölkənin bütün sahələrinə təsir göstərmişdi. Mədəniyyət sahəsində, xüsusilə kitabxana işi sahəsində böyük tənəzzül baş vermiş, 500-dən artıq kənd kitabxana şəbəkəsi ləğv edilmişdi. Məhz belə bir ağır



şəraitdə görkəmli dövlət xadimi Heydər Əliyev hakimiyyətə gəldi. Azərbaycan KP MK-nın plenumu 1969-cu ilin iyul ayında onu Mərkəzi Komitənin birinci katibi seçdi. Bununla da xalqımızın tarixində Heydər Əliyev dövrü, böyük dönüş mərhələsi başlandı. Bu mərhələdə iqtisadiyyat və mədəniyyətin bütün sahələrində olduğu kimi kitabxana işi sahəsində də böyük nailiyyətlər əldə edildi. 60-cı illərdə ölkə rəhbərliyinin səhvi üzündən ləğv edilmiş 500 kənd kitabxanası bərpa edildi. Bütünlükdə respublika kitabxana sisteminin təkmilləşdirilməsi və perspektiv inkişafı üçün tədbirlər həyata keçirildi.

Bu mərhələdə ölkəmizdə kitabxana quruculuğu sahəsində görülən işlər bilavasitə ulu öndər Heydər Əliyevin müdrik rəhbərliyi ilə həyata keçirildiyindən Azərbaycanda kitabxana işinin inkişafında Heydər Əliyev mərhələsi kimi xarakterizə edilir. Məhz bu mərhələdə respublikamızda xalq təsərrüfatının bütün sahələrinin inkişafı ilə yanaşı ölkədə elm, təhsil və mədəniyyətin bütün sahələrinin, o cümlədən kitabxana işinin inkişafına xüsusi dövlət qayğısı göstərilirdi. Heydər Əliyev dönüş mərhələsinin memarı və həyata keçirilməsinin təşkilatçısı idi.

Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə həyata keçirilən mədəni quruculuq tədbirləri içərisində kitabxana işi mühüm yer tutmuş və prioritet əhəmiyyət kəsb edən, cəmiyyətin mədəni həyatına təsir edən bir amilə çevrilmişdir. 70-80-ci illər həmçinin kitabxana işi sahəsində böyük islahatlar illəri olmuş, kitabxana işinin forma və məzmununda, kitabxana işinə rəhbərliyin təşkilati prinsiplərində, maliyyələşdirilməsində dərin işlahatlar aparılmış, kitabxana işinin mərkəzləşdirilməsi həyata keçirilmişdir.

70-80-ci illərdə respublikamızın mənəvi həyatında böyük yeniləşmə, dirçəliş baş vermiş, xalqımızın öz soy-

kökünə, milli adət-ənənələrinə qayıtması prosesi geniş vüsət almışdı. Milli özünüdərk, milli mənlik şurunun yeniləşməsi, milli idealogiyanın formalaşması bütün ideoloji müəssisələrin, o cümlədən kitabxanaların işinə ciddi təsir göstərmişdi. Kitabxanalar milli ədəbiyyat fondunu yeni ədəbiyyatla təkmilləşdirməklə bərabər, Azərbaycan ədəbiyyatının, Azərbaycan tarixinin, Azərbaycan mədəniyyətinin təbliği işini xeyli canlandırmağa, Azərbaycan kitabının təbliğini ön plana çəkməyə başlamışdılar. 70-80-ci illərdə respublikamızda kitabxana işinin daha da canlanmasında M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının böyük rolu olmuşdur. Milli Kitabxana respublikamızın dövlət kitabxanası kimi dövlətin kitabxana siyasətinin həyata keçirilməsində yaxından iştirak etmiş, öz fəaliyyətində mühüm keyfiyyət dəyişikliyi etməyə müvəffəq olmuşdur. 70-80-ci illərdə Milli Kitabxananın işi daimi ulu öndərin diqqət mərkəzində olmuş, onun fəaliyyətinə dövlət qayğısı ön plana çəkilmişdi.

Milli Kitabxana 70-ci illərdə öz fəaliyyətində mövcud olan durğunluğu sürətlə aradan qaldırmağa müvəffəq oldu. Məhz 70-ci illər kitabxananın həyatında sözün əsl mənasında dönüş dövrü oldu. Kitabxananın maddi-texniki bazasının yaxşılaşdırılması kitabxanaya ayrılan maliyyə vəsaitinin artırılması, yeni binanın müasir kitabxana avadanlığı ilə təchiz edilməsi, kitabxana fondunu yeni ədəbiyyatla təkmilləşdirməsi kitabxana işinin yeniləşməsini təmin etmişdi. Kitabxana ilk dəfə olaraq kitab fondunu öyrənmək, fondda olmayan nadir kitabları, xüsusilə ölkəmizin tarixinə, ədəbiyyatına dair əsərlər əldə etmək üçün işçi qrupu yaratmış və 1000 nüsxəyə qədər nadir kitablar əldə etməyə müvəffəq olmuşdu. Kitabxana həmçinin Rusiyanın xarici ölkələrinin milli kitabxanalarının iş təcrübəsini, strukturunu, idarə edilməsi qaydalarını öyrənmiş və onların təcrübəsindən bəhrələnmişdir.



Milli Kitabxananın 70-ci illərdəki fəaliyyətində Sov.İKP MK-nın 1974-cü ildə qəbul etdiyi "Zəhmətkeşlərin kommunist tərbiyyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq" haqqında qərarın yerinə yetirilməsi mühüm yer tutmuşdur. Bu qərarda kitabxanaların ideoloji, mədəni-maarif və məlumat funksiyaları müəyyənləşdirilmiş, kitabxananın mərkəzləşdirlməsi məsələsi irəli sürülmüşdü. Bu qərarın qəbulundan dərhal sonra Azərbaycan KP MK qərarı həyata keçirmək üçün "Kitabxana işi haqqında" xüsusi qərar qəbul etdi. Bu qərarda yerli hakimiyyət orqanlarına kitabxana işini yaxşılaşdırmaq, kitabxanaların mərkəzləşdirilməsini həyata keçirmək tapşırılmışdı. Qərarda yerlərdə mərkəzləşdirmə islahatının aparılması işi bilavasitə Azərbaycan Mədəniyyət Nazirliyinə tapşırılmışdı. Mədəniyyət Nazirliyi islahatın aparılmasının elmi-metodiki bazasının yaradılması işini Milli Kitabxanaya həvalə etmişdi. Kitabxana mərkəzləşdirmənin yerlərdə həyata keçirilməsini elmi-metodik və təlimat xarakterli vəsaitlər hazırlamaq və yerlərdə mərkəzləşmədə bilavasitə iştirak etmək məqsədi ilə kitabxananın elmi-metodiki şöbəsinin kadr potensialını gücləndirdi. Şöbənin işinə daha peşəkar kitabxana işçiləri qəbul edildi. Xüsusilə yerlərdə mərkəzləşmə işində bilavasitə iştirak etmək üçün metodistlərin ezamiyyəti işini bir neçə dəfə artırdı. Respublikamızın 60-dan çox rayonlarında mərkəzləşmənin həyata keçirilməsində bilavasitə iştirak edən kitabxana əməkdaşlarının fəaliyyəti mərkəzləşmənin vaxtından əvvəl başa çatdırılmasında xüsusi əhəmiyyət kəsb etmişdir. Kitabxana kollektivinin üzvlərinin böyük əksəriyyəti yerlərə mərkəzləşdirməni həyata keçirmək üçün ezam edilmişdi. Respublika hökumətinin

böyük səyi nəticəsində ölkədə kitabxanaların mərkəzləşdirlməsin vaxtından əvvəl başa çatdırıldı. Bu mühüm dövlət tədbirinin həyata keçirilməsində Milli Kitabxana yaxından iştirak etməklə böyük elmi-metodiki təşkilati işlər aparırdı. 1975-1980-ci illər ərzində mərkəzləşmə əsasən başa çatdırlıdı. Mərkəzləşmə nəticəsində respublikada 3174 filialı olan 69 mərkəzləşmiş rayon kitabxana sistemi yaradıldı. Şəhərlərdə isə 11 filialı olan 8 mərkəzləşmiş sistem yaradıldı. Mərkəzləşmənin vaxtından əvvəl başa çatdırılmasında Milli Kitabxananın aparıcı və istiqamətverici müəssisə kimi rolu dövlət orqanları tərəfindən xüsusi ilə qiymətləndirildi.

70-ci illərdə ölkədə kitabxana işində aparılan böyük islahatlar, kitabxana xidmətinin yeni əsaslar üzərində qurulması, kitabxanalarda metodik işin təkmilləşdiriməsi və mərkəzləşdirmənin qarşıda qoyduğu vəzifələrin hərtərəfli təhlil edilib ümumiləşdirilməsi respublikada kitabxanalara elmi-metodik işin mərkəzi kimi Milli Kitabxananın qarşısında çox mühüm vəzifələr qoymuşdu. Bu vəzifələri yerinə yetirmək üçün Milli Kitabxana metodik şöbənin işini yenidən qurmalı, MKS-rə rəhbərliyin yeni metod və üsullarını hazırlamalı, yeni təlimatlar tərtib etməli və bu təlimatlarda nəzərdə tutulmuş işlərin yerinə yetirilməsini diqqət mərkəzində saxlamalı idi.

Həmçinin Milli Kitabxananın qarşısında kitabxana işi və biblioqrafiyanın perespektiv planlarının hazırlanmasında, metodik və biblioqrafik işin əlaqələndirlməsində, qabaqcıl iş təcrübəsinin öyrənilib, ümumiləşdirilib yayılmasında, kitabxanaçı kadrların ixtisasının artırılmasında yaxından iştirak etmək vəzifəsi dururdu. Kitabxana 70-ci illərdə və 80-ci illərin əvvələrində qarşıda qoyulan bu mühüm vəzifələri yerinə yetirmək üçün bir sıra mühüm tədbirlər həyata keçirirdi. İlk növbədə kitabxananın elmi-



metodiki şöbəsinin işi yenidən quruldu, yeni istiqamətlər müəyyənləşdirildi. Şöbənin kadr potensialı gücləndi, yeni kadrlarla təkmilləşdirildi. Rayon kitabxanalarına metodik kömək etmək məqsədi ilə ezamiyələrin miqdarı 3 dəfədən çox artırıldı. MKS-lərə kömək məqsədi ilə təlimat-metodiki sənədlər toplusu hazırlanıb çap edildi. Hazırlanmış belə sənədlərə misal olaraq "Kitabxana və sorğu informasiya fondlarının məzmunca köhnəlmiş və fiziki cəhətdən yararsız nəşrlərdən təmizlənməsi və mühafizəsi haqqında təlimat", "MKS-lərin vəzifə təlimatı və ucot formalarına dair nümunəvi əsasnaməsi", "MKS-lərin illik iş planı sxemi və hesabatı" və s. nəşrləri və metodik məktubları göstərmək olar.

70-80-ci illərdə ölkədə gedən böyük iqtisadi və mədəni, mənəvi inkişaf dirçəliş Milli Kitabxananın işinədə müsbət təsir etmişdi. Kitabxana işinə Heydər Əliyevin qayğısı, xüsusilə Milli Kitabxananın işinə diqqəti kitabxananın fəaliyyətində ciddi dönüş yaratmışdı. Respublikada yaranan stabillik mədəniyyətə ayrılan vəsaitin ilbəil artırılması Milli Kitabxanaya öz işini zamanın tələblərinə müvafiq qurmağa şərait yaratmış, kitabxanaya öz fondunu zənginləşdirmək, yeni kitablarla komplektləşdirmək, qiymətli nadir kitablar, dublet nüsxələr əldə etmək imkanı vermişdi. Kitabxana dönüş illərində həm ittifaq həmdə respublika kitab palatalarından məcburi nüsxələr almağı qaydaya salmış, bir çox şəxsi kitabxanalar almağa və nadir kitabları əldə etməyə nail olmuşdu. Kitabxana oxucuların tələbatını nəzərə alaraq xarici dillərdə də kitab almağa böyük diqqət yetirirdi. Bu işdə kitabxanaya kitabxananın kitab mübadiləsi bölməsi yaxından kömək edirdi görülən işlər nəticəsiz qalmırdı. Artıq kitabxananın kitab fondunda 80-ci illərin axırında 3 milyon jurnaldan artıq kitab var idi.

70-80-ci illərdə kitabxanaya ildə orta hesabla 300 mindən artıq çap məhsulu daxil olurdu. 70-80-ci illərdə kitabxana dövrü mətbuat fondunun genişlənməsinə də ciddi diqqət yetirmişdi. 80-ci illərdə milli kitabxanaya orta hesabla 1670 adda rus dilində, 32 adda Azərbaycan dilində, 40 adda SSRİ xalqları dillərində 600 artıq adda 14 dildə xarici jurnallar daxil olmuşdu. Həmçinin kitabxana qəzetlərinin əldə edilməsinə və oxucuların istifadəsinə verilməsinə xüsusi diqqət yetirirdi. Belə ki, 80-ci illərinin əvvəlində kitabxana 74 adda Azərbaycan dilində, 51 adda SSRİ xalqları dilində 14 adda xarici dillərdə qəzet alırdı. Kitabxana 80-ci illərdə öz fondunu yeni nəşr formaları ilə də komplektləşdirməyə, kitabxana fondunu universallaşdırmağa xüsusi əhəmiyyət verirdi. 60-cı illərdə ayrıca şöbə kimi fəaliyyətə başlayan "Not-musiqi ədəbiyyatı" şöbəsi not-musiqi ədəbiyyatının formalaşmasında ciddi nailiyyətə müvəffəq oldu. Artıq 1985-ci ildə bu şöbənin fondunda 160989 nüsxə not-musiqi ədəbiyyatı 24888 qramafon valları toplanmışdı.

70-ci illərdə kitabxanaya xarici dildə kitab oxuyan oxucuların sayının artması kitabxana fondunda xarici dildə yeni ədəbi-bədii və elmi-texniki ədəbiyyatla təkmilləşməsinə böyük ehtiyac duyulurdu. Odur ki, kitabxana xarici ədəbiyyat fondunun zənginləşməsinə xüsusi diqqət yetirirdi. 1970-ci ildən başlayaraq hər il kitabxanaya 3238 nüsxə kitab, 250 adda qəzet, 5661 adda jurnal 168 mikrofilm və mikrofaş daxil olurdu. Bütün bunların nəticəsidir ki, 1985-ci ildə xarici ədəbiyyat fondunda 22 dildə 334559 nüsxə ədəbiyyat toplanmışdırki bununda 89093 kitab, 193945 nüsxəsi isə mikrofilm və lent yazısı olmuşdur.

Əlbəttə, 70-ci illərdə kitabxana fondun zənginləşməsi sahəsində həyata keçirilən tədbirlər, kitabxananın oxucuya xidmət işinə olduqca mühüm təsir etmiş, kitabxananın



daimi oxucularının miqdarı çoxalmış, oxucuların tərkibində işə böyük keyfiyyət dəyişikliyi baş vermişdir. Kitabxana oxucuları sırasında alimlərin, elmi işçilərin, müəllimlərin, aspirant-ların, yaradıcı ziyalıların sayı 2-3 dəfədən artmışdır. Oxucuların tərkibində baş verən dəyişiklik kitabxananın elmi imicini xeyli yüksəltməklə onu daha çox məşhurlaşdırmışdır.

Milli Kitabxanaya bir oxucu kimi ziyalıların böyük axını başlamışdı. Onlar öz tədqiqatları və araşdırmaları üçün lazım olan ədəbiyyatı ancaq Milli Kitabxanada əldə etmək imkanına malik idilər. Bütün bunlar 70-80-ci illərdə kitabxana oxucularının miqdarının əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdu.

Əgər Milli Kitabxanada 1970-ci ildə 25 mindən artıq oxucu var idisə onların miqdarı 1980-ci ildə isə 29 minə yaxın olmuşdur. Bu rəqəmlər o dövr üçün böyük nailiyyət hesab edilə bilərdi.

70-ci illərdə həm SSRİ-də, həm də beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun artması bir sıra xarici ölkələrlə Azərbaycanın mədəni əlaqələrinin genişlənməsi Milli Kitabxananın fəaliyyətinədə təsir artmış, Milli Kitabxana öz beynəlxalq əlaqələrini genişləndirməyə, kitab mübadiləsi aparmağa müvəffəq olmuşdur. Artıq kitabxana SSRİ-nin dünyanın 35 ölkəsi ilə əlaqə yaratmağa müvəffəq olmuşdu. Təkcə 1971-ci ildə sosialist ölkələrinə 280 kitab göndərmiş, 59 kitab almışdı. İran və Türkiyəyə isə 845 kitab göndərmiş, 228 kitab almışdı.

Kitabxana həmçinin 1981-1985-ci illərdə xarici kitabxanalarla beynəlxalq abonement vasitəsi ilə əlaqələri genişləndirmişdi. Göstərilən dövrdə xarici abonementlərin 200 sorğusunu ödəmiş və onlara 28 kitab göndərmişdi.

70-80-ci illərdə Milli Kitabxananın kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslıq sahəsində hələ 60-

70-ci illərdə elmi mərkəzə çevrilməyə başlaması prosesi daha da dərinləşdirmişdi.

70-80-ci illərdə Milli Kitabxananın Bakı Dövlət Universitetinin hazırladığı yüksək ixtisaslı, mütəxəssis kitabxanaçı kadrlarla təmin edilməsi, Kitabxanaçılıq fakültəsinin alimləri ilə elmi əməkdaşlıq etməsi, fakültə ilə birgə elmi tədqiqat planının hazırlanması onun elmi-metodik fəaliyyətinə müsbət təsir etmiş, kitabxanada kitabxanaşünaslıq və biblioqrafiyanın nəzəri məsələləri ilə, elmi araşdırmalar apara bilən kitabxanaşünaslar nəsli formalaşmağa başlamışdı.

1980-ci ildə kitabxananın həyatında çox mühüm bir hadisə baş verdi. Milli Kitabxananın ilk elmi əsərlərinin birinci buraxılışı çapdan çıxdı. Milli Kitabxananın elmi əösərlərinin birinci buraxılışının çapdan çıxmasını respublikamızın elmi ictimaiyyəti, görkməli elm və mədəniyyət xadimləri kitabxananın çox böyük uğuru kimi qiymətləndirmişlər. Elmi əsərlərin birinci cildində çap edilmiş təbriklər dediklərimizi bir daha təsdiq edir. Elmi əsərləri təbrik edən xalq şairi, akademik Bəxtiyar Vahabzadə, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi prof. Əziz Mirəhmədov, Əməkdar elm xadimi prof. Pənah Xəlilov və Əməkdar elm xadimi prof Abuzər Xələfovun yazılarına diqqət yetirək:

Bəxtiyar Vahabzadə: "... Bu gün M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının respublikada kitabxana işinin Baş qərargahından kitabxanaşünaslıq elminin "Baş qərargahına" çevrildiyini göstərən "Əsərləri"nin nəşrə başlamasını çox böyük sevinclə qarşılayıram"; Əziz Mirəhmədov: "Zəngin kitab sərvəti olan Azərbaycanımızda kitabxanaşünaslığı elmin müstəqil qolu kimi görmək çoxdanki arzum idi"; Pənah Xəlilov: "... M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanasının



"Əsərləri"nin ilk buraxılışının nəşrini mən böyük sevinc və iftixarla qarşılayır,.. onlara elmi-tədqiqat işi sahəsində daha böyük uğurlar arzu edirəm"; Abuzər Xələfov: "Əminəm ki, elmi əsər 10 minə yaxın kitabxanası olan respublikamızda elmimizin tərəqqisi naminə səhifələrində hamını düşündürən, maraqlı və rəngarəng materialları ilə ümumittifaq miqyasına çıxacaq, müasir həyatın tələbləri ilə ayaqlaşacaqdır."

Misal göstərdiyimiz yazılar kitabxananın o dövr elmi fəaliyyətinə verilən qiymətdir. Beləliklə, Milli Kitabxana 70-80-ci illərdə böyük uğurlar qazanmış Azərbaycan elm, təhsil və mədəniyyətinə şərəflə xidmət etmişdir.

# II FƏSİL
# M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASI MÜSTƏQİLLİK İLLƏRİNDƏ

## §2.1. Ulu öndər Heydər Əliyevin Milli Kitabxanaya qayğısı

1991-ci ildə SSRİ dağıldıqdan sonra Azərbaycan müstəqillik əldə etdi. Azərbaycan xalqı illərdən bəri arzusunda olduğu istəyinə çatdı. Ancaq bu müstəqillik xalqımıza çox baha başa gəldi. Ermənilər rus dövlətinə arxalanaraq Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək üçün separatçılıq və təxribatçılıq fəaliyyətinə başladılar. SSRİ dağıldıqdan sonra hakimiyyətə gəlmiş səriştəsiz dövlət başçılarının, Azərbaycan Xalq Cəbhəsi və Musavat cütlüyü hakimiyyətinin səhvi üzündən Dağlıq Qarabağ və ona bitişik olan rayonlar ermənilər tərəfindən işğal edildi. Ölkədə siyasi böhran baş verdi. İqtisadi tənəzzül, hərci-mərclik, dövlət qanunlarının kütləvi sürətdə qurulması cəmiyyətdə böyük anarxiyaya səbəb oldu. Ölkənin bir neçə bölgəyə bölünməsi prosesi reallaşırdı. Ölkə vətəndaş müharibəsi ilə üz-üzə dayanmışdı. Belə bir ağır şəraitdə müdrik Azərbaycan xalqı xalqın xilaskarı Heydər Əliyevi hakimiyyətə gətirdi. Azərbaycanın başı öz böyük xilaskarının iradəsi və qətiyyəti sayəsində böyük bəlalardan qurtardı. Ölkənin həyatında bərpa və quruculuq dövrü başlandı. Ölkədə xalq təsərrüfatının, dağılmış iqtisadiyyatın bərpası ilə yanaşı olaraq olduqca böyük çətinliklərlə üzləşən, ləğv olmaq təhlükəsində qalan mədəni-maarif müəssisələri, o cümlədən kitabxanalarda öz işlərini bərpa etməyə və fəaliyyətlərini davam etdirməyə başladı. Müstəqilliyin ilk



illərində daha böyük çətinliklər və məhrumiyyətlərlə üzləşən Milli Kitabxana ulu öndərin bilavasitə qayğısı sahəsində öz işini yenidən qurmağa əhaliyə kitabxana xidmətini yaxşılaşdırmağa, maddi-texniki bazasını möhkəmləndirməyə başladı.

Ulu öndər Heydər Əliyevin respublika rəhbərliyindən getdikdən sonra 80-ci illərin ikinci yarısından Milli Kitabxananın işində geriləmə başlamışdı. Bu geriləmə ümumiyyətlə bütövlükdə bütün respublikanın kitabxanalarının işində hiss olunurdu. Kitabxana işinə ayrılan maliyyə vəsaitlərinin azalması kitabxanaların ştat vahidlərində ixtisarların aparılması bu geriləmənin əsas şəbəkələrindən biri idi.

90-cı illərin ilk dövrləri Milli Kitabxananın həyatında ən acınacaqlı illər kimi xarakterizə olunur. Dövlət qayğısından məhrum olan kitabxana öz fəaliyyətini çox çətin bir şəraitdə yerinə yetirirdi. Kitabxana fondunun yeni ədəbiyyatla komplektləşdirilməsi işi üçün vəsaitin cüzi miqdarda ayrılması, sovetlər birliyi dövründə ittifaq kitab palatasından alınan məcburi nüsxələrin kəsilməsi, respublikada kitab nəşrinin tənəzzüllə uğraması, kitab bazarının acınacaqlı vəziyyətə düşməsi kitabxananın vəziyyətini olduqca çətinləşdirmişdi. Bütün bunların nəticəsidir ki, kitabxanaya il ərzində cəmi 1738 nüsxə ədəbiyyat daxil olurdu. Kitabxanaya daxil olan jurnalların və dövri mətbuatın miqdarıda olduqca azalmışdı. Bütün bunlar kitabxananın oxucularının sayının azalmasına, oxucuları yeni ədəbiyyatla təmin etmə-yin mümkünsüzlüyünə gətirib çıxarmışdı. Bütün bunlar azmış kimi kitabxananın binasına göz tikən, onu ofisə çevirməyə çalışan cahil məmurlar da meydana çıxmışdı. Onlar kitabxananın binasını, heç olmasa onun bir hissəsini boşaltmağı tələb edirdilər. Çox

şükür ki, o zaman görkəmli ziyalı-larımızın köməyi ilə bu işin qarşısı alındı.

1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı nəticəsində bütün sahələrdə olduğu kimi mədəniyyətimizin mühüm sahələrindən biri olan kitabxana işinin yenidən qurulmasında və inkişafında da bir sıra mühüm tədbirlər həyata keçirildi. Hər şeydən əvvəl keçid dövrünün çətinliklərinə baxmayaraq dövlətin kitabxana siyasəti dəyişdi. Kitabxana işi demokratik prinsiplər əsasında qurulmağa başladı. Keçmiş sosializm cəmiyyətindən müstəqil Azərbaycan dövlətinə o qədər də ürəkaçan irs qalmamışdı. Kitabxana işinə tətbiq edilən partiyaiılıq və sinifilik prinsipi kitabxana işinin demokratik əsaslarını sarsıtmışdı. Ulu öndərin göstərişi ilə bu antidemokratik prinsiplərdən imtina edilməsi, senzuranın ləğv edilməsi kitabxanaların fondunu bütünlüklə oxucuların üzünə açmaq imkanı verdi. Sinifilik və partiyyalılıq prinsipi Milli Kitabxananın fəaliyyətində daha çox özünü hiss etdirir, oxuculara xidmət prosesində demokratik əsasları pozurdu. Milli Kitabxana ideoloji alətə çevrilmişdi. Milli ruhlu kitabların təbliği, onların oxuculara verilməsi ciddi nəzarət altında idi. 1937-ci ildə xalq düşməni adı ilə həbs edilən, güllələnən, sürgün edilən ziyalıların, alim və yazıçıların əsərlərinin istifadəsi qadağan edilmişdi. Hər hansı kitab haqqında kiçik ideoloji nöqsanların göstərilməsi, onların oxuculara verilməsinə qadağa qoyulurdu. Kitabxanada "xüsusi fond" yaradılmışdı. Bu fondda oxunması qadağan olan "xalq düşmənlərinin", ideoloji baxımdan qüsurlu olan əsərlər saxlanılır, xüsusi fondlardan istifadə üçün xüsusi buraxılış vərəqi tələb olunurdu. Belə buraxılış vərəqələrini isə çox nadir hallarda almaq mümkün idi. Sinifilik və partiyalılıq prinsiplərinin tələbinə müvafiq oxucu və xidmət kataloqu



yaradılmışdı. Xidmət kataloqundan ancaq kitabxa-naçılar istifadə edə bilərdilər. Kitabxana fondunu bütövlükdə açan xidmət kataloqundan oxucuların istifadəsinə icazə verilmirdi. Oxucular ancaq ideoloji cəhətdən qüsurlu olmayan kitabxanaları əks etdirən oxucu kataloqundan istifadə edə bilirdilər. Milli Kitabxana elə müstəqilliyin ilk illərindən bu idealoji buxovlardan azad oldu və kitabxana fondunu bütün oxucuların üzünə açdı. Xüsusi fondların ləğv olunması və xüsusi fondlarda saxlanılan kitabların ümumi fondlara verilməsi elmi-tədqiqat işilə məşğul olan oxucular üçün böyük hədiyyə oldu.

Sosialist quruculuğu dövründə kitabxana işi sahəsində formalaşan, əsasən ideoloji xarakter daşıyan prinsiplərdən imtina edilməklə, formalaşmaqda olan yeni müstəqil Azərbaycan cəmiyyətinin demokratik dünyəvi prinsipləri Milli Kitabxananın işinə tədbiq edilməyə başladı. Kitabxana işi ideoloji buxovlardan azad edildi. Kitabxana işinə demokratikləşmə, milliləşmə və Azərbaycanlaşma ab-havası gətirdi. Müstəqilliyin ilk illərində kitabxana işi sahəsində buraxılmış nöqsanlar Ulu öndərin hakimiyyətə gəlişindən sonra aradan qaldırılmağa başladı. Kitabxana işinə dövlət qayğısı artdı. Keçid dövrünün çətinliklərinə baxmayaraq cəmiyyətdə nöqsanların qorunub saxlanması uğrunda mübarizə illəri başlandı. Bu dövr 1993-1999-cu illəri əhatə edir. Bu mühüm dövlət xarakterli işin təşklində ulu öndərin qayğısı, kitabxana işi haqqında dövlət sənədləri imzalanması bu işə dönməzlik və müvəffəqiyyət gətirdi. Ulu öndərin bilavasitə göstərişi ilə "Mədəniyyət haqqında" və "Kitabxana işi haqqında" qanunların hazırlanmasına başlandı.

1996-cı ildə kitabxana işçilərinin respublika müşavirəsi keçirildi. Müşavirə kitabxana şəbəkələrinin qorunub saxlanmasına və inkişafına, müstəqillik şəraitində onların

vəzifələrinə xüsusi diqqət yetirdi. Müşavirədən sonra Azərbaycan Nazirlər Kabineti "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onun yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etdi. Keçid dövründə bu qərarın kitabxana işinin qorunub saxlanmasına və maliyyələşdirmə işinin qismətdə olsa yaxşılaşdırılmasına müsbət təsir etdi.

Respublikamızda keçid dövründə kitabxana şəbəkələrinin qorunub saxlanmasında ulu öndər Heydər Əliyev tərəfindən 1995-ci ildə "Azərbaycan Respublikasında 1995-1999-cu illər dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında" imzaladığı fərmanın böyük rolu oldu. Fərmanda ölkədə gedən özəlləşdirmə zamanı kitabxanaların özəlləşdirilməsinin qadağan olunması bu prosesin qarşısını almaqla, onların müstəqil şəkildə dövlət müəssisəsi kimi qorunub saxlanmasını təmin etdi.

Görülən tədbirlər öz bəhrəsini verdi, kitabxana şəbəkələrinin qorunub saxlanması mümkün oldu. Kitabxanaçılıq sahəsində həyata keçirilən dövlət tədbirləri M.F.Axundov adına Milli Kitabxananın işinə də müsbət təsir etdi, kitabxananın işi elmi əsaslar üzərində yenidən qurulmağa başlandı.

1998-ci ildə Milli Məclis bilavasitə ulu öndər Heydər Əliyevin göstərişi ilə hazırlanmış "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etdi.

Azərbaycan kitabxana işi tarixində ilk dəfə qəbul edilmiş bu qanun böyük tarixi hadisə idi. Bu qanun ölkəmizdə kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının yaradılması, mühafizəsi, maliyyələşdirilməsi və kitabxanalardan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələrini müəyyən



edən əsas dövlət sənədidir. Qanun kitabxana işinin hüquqi əsaslarını yaratmaqla onun gələcək perspektiv inkişafı üçün əsaslı zəmin yaratdı. Olduqca mühüm fəaliyyət sahəsində yeni mərhələnin başlanğıcı oldu.

Qanunda kitabxanaların sosial institut kimi statusu statusu edilmiş, cəmiyyətin sosial-mədəni həyatında böyük rolu müəyyənləşmişdir.

Qanunda respublikamızın elm, təhsil və mədəniyyət abidəsi olan Milli Kitabxanaya böyük qiymət verilməsi, onun haqqında ayrıca bölmə ayrılması kitabxanaya verilən böyük qiymət idi.

Qanunda göstərilir: "Milli Kitabxana Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə nəşr olunmuş Azərbaycan haqqında və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə qiymətli əsərləri və digər məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli mədəniyyət xəzinəsi və dövlət kitab saxlayıcısıdır". Qanunda həmçinin Milli Kitabxananın digər funksiyalarını onun kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslıq sahəsində elmi-tədqiqat müəssisəsi olması, ölkənin bütün kitabxanaları üçün metodik mərkəz olması və s. əsaslandırılmışdır. Milli Kitabxananın statusunu və strukturunu müəyyənləşdirən bu qanun kitabxananın qarşısında çox mühüm vəzifələr qoymaqla onun gələcək inkişafı istiqamətini əsaslandırırdımışdır.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun 7-ci maddəsinə müvafiq, olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 aprel 2004-cü il tarixli qərarı ilə M.F.Axundov adına Dövlət Kitabxanasına "Milli Kitabxana" statusu verildi. Bu qərara müvafiq Milli Kitabxananın strukturunda islahatlar

aparıldı, yeni bölmələr və şöbələr yaradıldı. Yeni şöbələr içərisində "Elektron informasiya xidməti və infrstrukturun təşkili və proqram təminatı" şöbəsi, "Avtomatlaşdırma və informasiya texnologiyaları" şöbəsi, "Elektron resursların yaradılması və analitik elektron məlumat bazasının təşkili" şöbəsi, "Elektron kataloqun formalaşdırılmasına dəstək" şöbəsi, "Elektron dissertasiya fondunun təşkili və ondan istifadə" şöbəsi, "Elektron resurslardan istifadə lokal şəbəkə vasitəsi ilə virtual xidmət" şöbəsi, "Kitabxanaların metodik təminatı" şöbəsi və bir sıra yeni bölmələr yaradılmışdır. Əlbəttə belə mühüm şöbələrin və bölmələrin yaradılması kitabxananın informasiyalaşdırılması üçün əlverişli şərait yaratmış, milli kitabxananı respublika kitabxanalarının elektron mərkəzinə, kitabxanaların kompüterləşdirilməsi mərkəzinə çevirmişdir.

Milli Kitabxananın fəaliyyəti həmişə Azərbaycan dövlətinin xüsusilə Azərbaycan Respublikası prezidentinin diqqət mərkəzində olmuş, həm Sovetlər Birliyi dövründə, həm də müstəqillik illərində Heydər Əliyev Milli Kitabxananın işi ilə maraqlanmış, onu elmimizin və mədəniyyətimizin inkişafının əsas mərkəzi kimi qiymətləşdirmişdi.

Belə bir fakt diqqəti cəlb edir ki, ulu öndər 1993-1999-cu illərdə işinin çoxluğuna baxmayaraq 4 dəfə kitabxanaya gəlmiş, kitabxanada keçirilən tədbirlərdə fəal iştirak etmiş, çıxış etmiş kitabxananın rəhbərliyi ilə fikir mübadiləsi aparmış, kitabxana haqqında, kitabxananın vəzifələri haqqında, görüləcək işlər haqqında öz məsləhətini vermiş, Milli Kitabxananı elm və mədəniyyət məbədgahı kimi qiymətləndirmişdir.

Dünya kitabxanaları tarixində nadir hadisədir ki, ölkə prezidenti qısa bir zaman kəsiyində Milli Kitabxanaya 4 dəfə gəlsin, kitabxana işi ilə maraqlansın öz qiymətli tövsiyələrini versin.



Ulu öndər Heydər Əliyev M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına ilk dəfə 1995-ci il iyunun 3-də Azərbaycan Qadınları Milli Komitəsinin, Respublika Kitab Cəmiyyətinin və ABŞ-ın "Stark enterprayz" firmasının təşəbbüsü ilə kitabxanada "Vətənə, dövlətə, xalqa sədaqət andı" minatür kitabın təqdimat sərgisində iştirak etmək üçün gəlmişdi. Sərgidə XVIII ərslərdən bəri müxtəlif dillərdə nəşr edilmiş iki minə qədər minatür kitab və prezident Heydər Əliyevin Milli Kitabxanaya bağışladığı 300-dən artıq kitab nümayiş etdirildi. Sərginin əlamətdar cəhətlərindən biri də bu idi ki, H.Əliyevin andiçmə mərasimində söylədiyi Vətənə, dövlətə, xalqa sədaqət andı olan nitqin minatür şəkildə Azərbaycan, rus və ingilis dillərində nəşr edilmiş varinatları dövlət başçısına hədiyyə edildi.

Ulu öndər sərgini seyr etdikdən sonra böyük məmuniyyətlə öz tarixi çıxışını etdi. Bu çıxış dünya kitabxanaları tarixində kitabxanaya verilən böyük qiymət nöqteyi-nəzərindən olduqca unikal, öz müdrik fikirləri ilə fərqlənən bir çıxış kimi kitab və kitabxana haqqında aforizmə çevrilmişdir. Məlum olduğu kimi, dünyanın görkəmli dövlət, elm, mədəniyyət xadimləri kitab və kitabxana haqqında elmi və mədəni əhəmiyyətə malik çox qiymətli fikirlər söyləmişlər. Bu fikirlər içərisində H.Əliyevin kəlamları öz elmi-fəlsəfi məzmunu etibarı ilə çox-çox yüksəkdə durur. H.Əliyevin böyük fəlsəfi əhəmiyyət kəsb edən bu fikirləri dünya mədəniyyəti tarixində kitabxanaya verilən ən müdrik kəlam, böyük elmi mədəni əhəmiyyətə malik fikirlərdir.

Heydər Əliyev deyir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də, kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən

biridir. Mən vaxtı ilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət, ehtram hissi duyuram. Kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm".

Prezident kitabxananı müqəddəs bir yer (ilahi qüvvəyə malik, toxunulmaz, sarsılmaz, par, təmiz bir yer) kitabxanaların cəmiyyətin mənəvi tərbiyyəsində böyük qüvvə olmasını ön plana çəkir. Həmçinin kitabxanaların mənəviyyat, bilik, zəka mənbəyi kimi xarakterizə edilməsi onun cəmiyyət qarşısındakı elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə kimi çox mühüm sosial funksiyaları yerinə yetirmək vəzifələrini elmi cəhətdən əsaslandırır. Tariximizin lap dərin qatlarında formalaşan bu ideya ulu öndər Heydər Əliyev tərəfindən yüksək zirvəyə qaldırılmış, ona yeni məna və məzmun verilmiş, bilavasitə xalqın ümumi mədəni səviyyəsi ilə əlaqələndirmişdir. Bu məsələni şərh edərkən H.Əliyev yazır "Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir". Doğrudan da Azərbaycan xalqı tarixən kitaba və kitabxanaya böyük hörmət etmiş, onu qoruyub saxlamışdır. Hər bir Azərbaycanlı ailəsində kitab müqəddəs, ilahi qüvvə kimi qiymətləndirilmişdir.

Heydər Əliyevin çıxışında dünyanın ən qədim peşələrindən biri olan kitabxanaçılıq peşəsinə Azərbaycanın sadə, əmək adamları olan kitabxanaçılara, böyük hörmət və ehtiramıda öz əksini tapmışdır. Heydər Əliyev deyir: "Mən vaxtı ilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük ehtiram hissi duyuram, kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiram bildirmək istəyirəm".

Heydər Əliyevin dar bir zaman kəsiyində Milli Kitabxanaya 4 dəfə gəlişi kitabxananın tarixində əlamətdar bir



hadisə olmaqla, kitabxananın tarixinin şanlı səhifələrinə çevrilmişdir. Ulu öndərin kitabxanaya bu gəlişi, kitabxanadakı dərin məzmunlu çıxışı Azərbaycanda kitabxana işinin dövlət müəssisəsi kimi inkişaf etdirilməsinə, dövlət qayğısı ilə əhatə edilməsinə səbəb olmaqla, respublika ictimaiyyətinin diqqətini kitabxana işinə cəlb etdi. Kitabxanaçı peşəsinin şərəfli bir peşə olmasını ön plana çəkdi.

Ulu öndərin M.F.Axundov adına Milli Kitabxanaya gəlişi kitabxananın tarixinə qızıl sətirlərlə yazıldı, onun şan və şöhrətini qat-qat artırdı. Ölkə keçid dövrünün çətinlikləri ilə üzləşməsinə baxmayaraq onun inkişafına geniş imkanlar açdı.

Milli Kitabxananın maddi-texniki bazası möhkəmləndirildi. Ölkədə maliyyə çətinlikləri hökm sürdüyü bir dövrdə kitabxanaya ayrılan vəsait artırıldı. 80-ci illərin axırı və 90-cı illərin əvvəllərində kitabxanada baş verən geriləmə prosesləri tədricən aradan qaldırılmağa başladı. Heydər Əliyevin bilavasitə tapşırığı ilə 1999-cu ildə kitabxananın binası təmir edildi, az da olsa kitabxana yeni avadanlıqla təmin edildi. Keçid dövrünün çətinliklərinə baxmayaraq kitabxana 1993-cü ildən başlayaraq dövlət tərəfindən davamlı olaraq maliyyələşdirilmiş, kitabxanaya ayrılan vəsait ilbəil artırılmışdı. Əgər 1991-ci ildə kitabxananın büdcəsi 1569800 rubul təşkil edirdisə, 2003-cü ildə bu rəqəm 37572400 manat olmuşdur. Yəni on ildə 36 milyon manata qədər artmışdır. Kitabxanaya ayrılan maliyyə vəsaitinin artması onun fondunun yeni ədəbiyyatla komplektləşdirilməsinə olduqca müsbət təsir göstərmişdir. 1993-cü ilə nisbətən 2003-cü ildə yəni on ildə kitabxanaya 134829 nüsxə çap məhsulu daxil olmuşdur ki, bundan da 557774 nüsxəsi kitab olmuşdur.

Heydər Əliyevin göstərişi ilə kitabxananın büdcəsinə əlavə olaraq xarici ölkələrdən kitab almaq üçün hər il 500

dolların ayrılması kitabxananın xarici ədəbiyyat fondunun təkmilləşməsinə əlverişli şərait yaratmışdı. 90-cı illərdə kitabxananın xarici ədəbiyyat fondunun artmasında Bakıda fəaliyyət göstərən xarici ölkə səfirliklərinində köməyi olmuşdur. ABŞ-ın, Fransanın, İngiltərənin, Almaniyanın, İsveçrənin, Türkiyənin, Rusiyanın və s. ölkələrin səfirlikləri vaxtaşırı olaraq kitabxanaya xeyli miqdarda kitab bağışlamışlar. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq əlaqələrinin genişlənməsi ölkədə xarici ədəbiyyata böyük tələbat əmələ gətirmişdi. Odur ki, kitabxana oxucuları içərisində xarici dillərdə mütaliə edən oxucuların sayı orta hesabla 3 dəfədən çox artmışdı. Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsi kitabxananın fəaliyyətinə müsbət təsir etmiş, kitabxana nəinki MDB ölkələri ilə, həmçinin dünyanın bir çox ölkələrin milli kitabxanaları ilə, türk dünyası kitabxanaları ilə beynəlxalq əlaqələr qurmağa müvəffəq olmuşdur. Hazırda kitabxananın dünyanın 60-dan artıq kitabxanası ilə beynəlxalq əlaqələri mövcuddur. Kitabxana bir neçə beynəlxalq təşkilatların üzvüdür. Beynəlxalq konfransların keçirilməsinə ev sahibliyi edir.

Müstəqillik illərində Milli Kitabxananın əldə etmiş olduğu ən böyük uğur oxucu-kitabxanaçı münasibətlərinin yeni demokratik prinsiplər əsasında qurulmasında baş vermişdir. Kitabxananı özünün intellekt səviyyəsinin yüksəlməsi, informasiya təminatı mənbəyi kimi qiymətləndirən kitabxanaçı və oxucu arasında böyük yaxınlaşma prosesi getmiş, kitabxananın daimi oxucularının sayı artmış, onlara kitabxana xidməti kökündən dəyişmişdir. Müstəqillik illərində senzuranın ləğv edilməsi, kitabxanalarda yaradılmış xüsusi fondların, oxucu kataloqlarının öz fəaliyyətini dayandırması, siyasi cəhətdən zərərli hesab edilən əsərlərin üzərindən qadağanın götürülməsi "xalq düşməni" adı ilə həps edilmiş, güllələnmiş, sürgünə



göndərilmiş görkəmli Azərbaycan ziyalılarının, alimlərinin yazıçı və şairlərinin, dövlət xadimlərinin əsərləri üzərindən qadağanın qaldırılması kitabxanaya müraciət edən oxucuların sayını olduqca artırmışdı. Oxucular arasında tədqiqatçıların çoxluq təşkil etməsi, kitabxananın qarşısında qadağan edilən, qıfıl altda saxlanılan əsərləri üzə çıxarmaq, belə əsərlər haqqında oxuculara informasiyalar hazırlamaq vəxifəsi qoyulmuşdu. Həmçinin keçmiş tariximizə, soykökümüzə, adət ənənələrimizə, bayramlarımıza, dinimizə aid qadağa qoyulan kitabları oxucuların istifadəsinə vermək, bütün idealoji buxovları qırmaq əsas vəzifə kimi qarşıya çıxmışdı. Həmçinin keçid dövrü ilə əlaqədar respublikamızın digər kitabxanalarının ədəbiyyatla komplektləşmə imkanlarının olmamasıda Milli Kitabxanaya oxucu axınını daha da gücləndirmişdi. Kitabxananın əməksevər kollektivi bu olduqca çətin vəzifənin öhtəsindən müvəffəqiyyətlə gəldi. Müstəqillik illərində kitabxanaya təxmini hesablamalara görə 700000 oxucu gəlmiş, onlara 5 milyon nüsxəyə qədər kitab verilmişdir. Bu rəqəmlər respublikamızda kitaba, xüsusi ilə milli kitablara əmələ gələn böyük tələbatın əyani sübutudur.

Müstəqillik illərində Milli Kitabxana beynəlxalq əlaqələri xeyli genişləndirməyə həm MDB ölkələri, həm Avropa ölkələri həm də dünyanın bir çox digər ölkələri ilə əlaqə yaratmağa, beynəlxalq kitab mübadiləsində yaxından iştirak etməyə, dünyanın qabaqcıl Milli Kitabxanalarının iş təcrübəsi ilə tanış olmağa müvəffəq olmuşdur. Hazırda dünyanın 70-dən artıq ölkəsinin milli kitabxanaları və digər elmi müəssisələri ilə əlaqə saxlayır.

Milli kitabxanaçılığımızın tarixində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının dünyanın 30-dan artıq Milli Kitabxanaları ilə əməkdaşlığa dair memorandum imzalaması əlamətdar hadisədir. Memorandum im-

zalanan ölkələrin sırasına: Türkiyə, Rusiya, Fransa, Avstrya, Niderland, Latviya, Estoniya, İordaniya, Suriya, Sloveniya, Çexiya, Belarus, Qırğızıstan, Tacikistan, İran və s. ölkələr daxildir. Belə memorandumların imzalanması, onların qarşılıqlı sürətdə həyata keçirilməsi Milli Kitabxananın iş təcrübəsinə mühüm yeniliklər gətirməklə kitabxananın beynəlxalq nüfuzunun artmasına səbəb olmuşdur.

Müstəqillik illərində Milli Kitabxana beynəlxalq kitab mübadiləsinin həyata keçirilməsində də mühüm işlər görməyə müvəffəq olmuşdur. 80-ci illərin axırlarında və 90-cı illərin əvvəllərində Milli Kitabxananın beynəlxalq kitab mübadiləsi sahəsindəki fəaliyyəti demək olar ki, dayanmışdı. Müstəqillik illərində bu mühüm fəaliyyət sahəsini bərpa edən kitabxana artıq dünyanın 60-dan çox ölkəsi ilə beynəlxalq kitab mübadiləsi edir. 2006-cı ildə kitabxana xarici ölkələrdən 2000-dən artıq kitab almış və həmin kitabxanalara 5000 nüsxə kitab göndərmişdir.

XXI əsrin əvvəllərində M.F.Axundov adına Dövlət Kitabxanası "Milli Kitabxana" statusu aldıqdan sonra onun fəaliyyətində ciddi canlanma baş verdi və Milli Kitabxana dövrlə, zamanla ayaqlaşmaq üçün bir sıra yeni vəzifələrin həyata keçirilməsinə başladı. Respublikamızda 2003-cü ildə çap məhsulatının uçot və qeydini aparan, arxiv fondunu yaradan, aylıq, rüblük, illik kitab letopisləri nəşr edən, dövlət biblioqrafiyası orqanı olan Kitab Palatası ləğv edildi. Azərbaycan hökuməti Kitabxana Palatasının bütün funksiyaları Milli Kitabxanaya həvalə etdi. Bu mühüm vəzifəni yerinə yetirmək üçün kitabxana böyük çətinliklərlə qarşılaşdı. Qısa müddət ərzində kitabxana Kitab Palatasının təcrübəsini mənimsədi və kitab palatasının işlərini davam etdirməyə başladı. 2004-cü ildən kitabxana respublikada nəşr edilən bütün çap məhsullarının uçot və



qedini aparır və il ərzində nəşr olunan bütün materialları əhatə edən "Birillik Azərbaycan kitabını" çap edir. İndiyə qədər kitabxana da bu nəşrin 20-dən çox buraxılışı olmuşdur. Kitabxananın iş prosesinə yeni daxil olan fəaliyyət sahələrindən biri də "Yeni kitablar" adlı cari biblioqrafik-informasiya göstəricisinin nəşridir. Bu göstəricidə kitabxananın fonduna daxil olan bütün nəşrlər öz əksini tapır. Bununla da Azərbaycan mətbuatının elektron məlumat bazasının yaradılmasının əsası qoyuldu.

## §2.2. Milli Kitabxana və informasiya cəmiyyəti

Müstəqillik illərində Milli Kitabxananın qarşısında çox məsul bir vəzifə-informasiya cəmiyyətinin tələblərinə müvafiq kitabxananın bütün iş prosesinin informasiyalaşdırmaq vəzifəsi qoyulmuşdu. İnformasiyalaşdırılmış cəmiyyətin yaradılması və daha da təkmilləşdirilməsi bilavasitə kommunikasiya sistemləri, informasiyanın alınması, işlənməsi və verilməsi prosesi ilə əlaqədar olduğundan müasir cəmiyyətdə hər cür informasiyanı insanlar arasında yaymağı qarşısına məqsəd qoyan kitabxana sistemləri mühüm əhəmiyyət kəsb edir. Təsadüfü deyil ki, YUNESKO "kitabxanaları informasiya cəmiyyətinin ürəyi" adlandırır. Belə bir çətin, mürəkkəb, araşdırmalar və islahatlar aparmağı tələb edən bu prosesin həyata keçirilməsi kitabxana kollektivinin böyük səy və bacarığının yeniləşməsini, kitabxana-informasiya texnologiyasını sürətlə mənimsənilməsini tələb edirdi. Bu mühüm vəzifənin həyata keçirilməsi üçün kitabxanada tezlik plan-prospekt hazırlandı, dünya təcrübəsi öyrənilməyə başlandı, ciddi islahatlar aparmaq yolu ilə informasiyalaşdırma prosesini müəyyən istiqamətə yönəltmək mümkün oldu. Kitabxana keçid dövrünün çətinliklərinə baxmayaraq kitabxana işinin

kompüterləşdirliməsi, yeni informasiya texnologiyaları ilə təmin edilməsi, kitabxana xidmətinin informasiyalaşdırılması üçün müasir avadanlıqlar əldə etməyə müvəffəq oldu. Kitabxana bu mühüm iş prosesini ilk dövrlərdə beynəlxalq ictimai təşkilatlarından əldə etdiyi qrantlar hesabına həyata keçirirdi. Bu işdə kitabxanaya Avrasiya fondu və Soros fondu ilə əməkdaşlıq sərfəli olmuşdur. 1990-cı illərin axırı və 2000-ci ilin əvvəllərində kitabxana ona yaxın qrant udmuşdur ki, bu da kitabxanaya maliyyə imkanlarını artırmaq imkanı vermişdir. Kitabxana həmçinin kitabxanada informasiyalaşdırma işini həyata keçirə biləcək kadr hazırlığı məsələsinə də xüsusi diqqət yetirirdi. Milli Kitabxanaların əməkdaşları udulmuş qrant hesabına Tbilisi kitabxanalarında olmuş və Gürcüstan İnformasiya Mütəxəssislərinin Assosiasiyası ilə birgə Avrasiyanın əməkdaşlıq proqramı çərçivəsində "Cənubi Qafqaz dövlətlərinin kitabxana və informasiya işçilərinin regional informasiya mərkəzi" adlı layihə işləmişlər. Layihə əsasında kitabxananın 8 nəfər əməkdaşı həmin mərkəzdə Amerika kitabxana və informasiya proqramı çərçivəsində təhsil almışlar. Həmçinin kitabxana öz işçilərinin informasiyalaşdırma proseslərində fəal iştirak etmələrini təmin etmək üçün kurslar təşkil etmişdir.

Milli Kitabxananın həyatında informasiyalaşdırma sahəsində ən böyük hadisə dünyanın böyük kitabxanalarında tətbiq edilmiş VTLS VIRTUA proqramının tədbiq edilməsi olmuşdur. Kompleks xarakter daşıyan bu proqram kitabxananın bütün iş prosesinin informasiyalaşdırılmasını təmin edir. 2000-ci ildə kitabxana ABŞ səfirliyinin SOROS və Avrasiya fondlarının maliyyə dəstəyi ilə ABŞ-ın VTLS korporosumunun xüsusi kitabxanalar üçün işləyib hazırladığı VİRTUA proqramını layihə şəklində əldə etdi. Bu proqramın qəbulundan sonra



kitabxanada elektron kataloqun tərtibinə başlandı. Milli Kitabxanada elektron kataloq maşınla oxunan beynəlxalq MARC-21 formatında işlənmişdir. 2006-cı ildə Milli Kitabxananın veb-saytının və elektron kataloqunun təqdimat mərasimi keçirildi. Kitabxana əməkdaşlarının ciddi səyi nəticəsində elektron kataloq ən zəngin kataloqlardan birinə çevrilmiş, oxucuların rəğbətini qazanmışdır. Sonrakı illərdə kitabxana öz informasiyalaşdırma fəaliyyətini daha da genişləndirərək elektron kitabxana yaratmağa başladı. Kitabxana qısa müddət ərzində elektron kitabxanaya 5000 artıq kitab, 8 dövri mətbuat nömrəsi daxil edə bilmişdir. Həmçinin kitabxanada oxuculara xidmət işində kitabxana informasiya texnologiyalarından geniş istifadə olunması nəticəsində yeni iş formaları və üsulları tədbiq olunur. Nəticədə "virtual xidmət", "virtual oxucu", "elektron kataloq", "elektron kitabxana", "məlumat bazası", "informasiyalaşdırma", "informasiya xidməti", "informator", "kompüterləşmə", "kompüter biliyi" və s. kimi istilahlar elmi dövriyəyə daxil edilmişdir. 1998-ci ildə kitabxanada internet zalının açılması oxuculara qiymətli hədiyyə oldu. 2008-ci ilin sentyabrında Milli Kitabxanada Rusiya Dövlət Kitabxanasının elektron dissertasiya fondunun virtual oxu zalının açılışı oldu. Bu respublikamızda elmi-tədqiqat işi ilə məşğul olan elmi işçilərə, alimlərə böyük töhfə idi. Həmçinin Milli Kitabxana respublikamızda müdafiə edilən dissertasiyaların fondunu yaratmış, onlardan istifadə işini təşkil etmişdir. Kitabxana hazırda dissertasiyaların tammətinli bazasını yaratmışdır. Milli Kitabxananın son dövr fəaliyyətində diqqətə layiq işlərdən biri də kitabxanaçıların fasiləsiz təhsilində iştirak etmək olmuşdur. Bu məqsədlə kitabxanada 2000-ci ildə kütləvi kitabxanaların işçiləri üçün ixtisasartırma Tədris Mərkəzi yaradılmışdır. Bir il müddətində bu mərkəzdə Bakı və Sumqayıt şəhərlərinin

35 kitabxanasından 214 nəfər kitabxanaçı öz ixtisasını yüksəltmişdir.

Sevindirici haldır ki, Milli Kitabxana 2008-ci ilin may ayından öz elektron məlumat bazasını Avropa elektron bazasına daxil etməyə müvəffəq olmuşdur. Yəni kitabxananın oxucuları Avropanın 50-dən çox böyük kitabxanasının fondlarında və kataloqlarında bir başa axtarış aparmaq imkanı əldə etmişlər. Həmçinin Avropa ölkələrinin 50-dən çox Milli Kitabxanalarının oxucuları Azərbaycan Milli Kitabxanasından istifadə etmək imkanı əldə etmişlər. 2008-ci ildən Milli Kitabxanada oxuculara virtula kitab sifarişi vermək imkanının yaradılması kitabxana kollektivinin böyük uğurudur.

Milli Kitabxananın informasiyalaşdırılması işində kitabxana oxucularına elektron vasitələrdən istifadə etmək, işinin öyrədilməsində təqdirə layiqdir. İndi oxucuların əksəriyyəti elektron kataloqlardan istifadə etməyə üstünlük verirlər.

Milli Kitabxana müstəqillik illərində kitabxananın elmi-metodiki və ictimai fəaliyyətinin müvəffəqiyyətlə davam etməsinə və bu mühüm işlərə yeniliklər və innovasiyalar gətirməyə nail olmuşdur. Kitabxanada bu mühüm sahələrdə yeni iş üsulu və formaları meydana gəlmiş və möhkəmlənmişdir.

Milli Kitabxana son illərdə öz elmi-metodik və nəşriyyat fəaliyyətini xeyli genişləndirmiş, kitabxana işinin müxtəlif sahələrinə dair elmi-nəzəri və metodiki əsərlər buraxmağa başlamışdır. Belə nəşrlər içərisində kitabxana tarixinə, kitabxana işi sahəsində H.Əliyev ideyalarının müvəffəqiyyətlə davam etdirilməsinə, müstəqillik illərində kitabxana işinin nəzəri və metodiki məsələlərinə dair onlarla nəşrlər xüsusi elmi əhəmiyyət kəsb edir və kitabxananın elmi potensialının möhkəmlənməsinə



xidmət edir. Respublika kitabxanalarına metodik təminat işinin təşkilinə bilavasitə böyük kömək edən "Əlamətdar və tarixi günlər" təqviminin 2004-cü ildə nəşrinin bərpası və ardıcıl olaraq kitabxanalara göndərilməsi kitabxana ictimaiyyətinin böyük rəğbətinə səbəb olmuşdur. Milli Kitabxananın son dövür fəaliyyətində nəzərə çarpan və ona böyük hörmət gətirən fəaliyyət sahələrindən biri də kütləvi işlərin yeni formalarından istifadə etmək olmuşdur. Ənənəvi kütləvi işlərlə yanaşı yeni kütləvi işlər: yeni kitabların təqdimatı, yeni kitablara və mühüm problem məsələlərə həsr edilmiş konfranslar, kitabxananın elektron fəaliyyətini əks etdirən sərgilər, kitabxana işinin və ictimai-siyasi proseslərə həsr edilmiş sərgilər mühüm yer tutur. Göstərilən kütləvi işlər sırasında yeni kitabların təqdimatı mərasimləri yeni dövrün ən mühüm xüsusiyyətlərindən biridir. Dövlət proqramlarının Ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin yeni nəşrlərinə, Heydər Əliyev və dövlətçiliyimiz haqqında nəşrlərin təqdimatına həsr edilmiş tədbirlər mühüm kütləvi təbliğat mahiyyəti ilə yanaşı böyük ictimai-siyasi xarakter daşıyır. Kitabxanada demək olar ki, hər həftə belə tədbirlərin keçirilməsi kitabxana özünün fəaliyyətinə ictimaiyyətin diqqətini cəlb edir. Onun elmi, ictimai və siyasi nüfusunun yüksəlməsinə böyük təsir göstərir. Böyük məmuniyyət hissi ilə demək olarki Milli Kitabxana öz statusuna müvafik böyük elmi-metodiki mərkəzə çevrilmişdir.

Son illərdə Milli Kitabxana ölkəmizin böyük inkişafı, tərəqqisi və beynəlxalq imicinin artması fonunda böyük nailiyyətlər əldə etmiş və beynəlxalq nüfuz qazanmışdır. Kitabxana dünyanın bir çox ölkələri, kitabxanaları və digər elmi müəssisələri ilə böyük əlaqələr yaratmış, kitab və kitabxana işinə dair tədbirlərin beynəlxalq iştirakçısı

olmaqla yanaşı belə tədbirlərin keçirilməsində ev sahibliyi etmişdir.

Milli Kitabxananın özünün 90 illiyi ərəfəsində "Avropa Milli Kitabxanaları Konfransının" 27-ci illik görüşünə və "Avrasiya Kitabxanalar Assambleyası" əməkdaşlıq təşkilatının XV ümumi iclasına sahibliyi etməsi dediklərimizə bariz sübutdur.

Milli Kitabxananın son dövr fəaliyyətində türk xalqları Milli Kitabxanaları ilə beynəlxalq əlaqələr qurması mühüm əhəmiyyət kəsb etmişdir. Kitabxana türk xalqları mədəniyyətlərarası əlaqələrinin yaradılamsında, daha da inkişaf etdirilməsində, türk xalqları mədəniyyətlərinin qarşılıqlı təbliğində, türk xalqları ilə dostluq, qardaşlıq əlaqələrinin mühkəmləndirilməsindəki diqqətə layiq fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

"Türksoy" təşkilatı ilə kitabxananın həyata keçirdiyi türk xalqlarının tarixi dostluğuna, ədəbiyyat, dil, adət-ənənə yaxınlığına dair tədbirlər, türk xalqlarının görkəmli alimlərinin, yazıçılarının həyat fəaliyyətlərinə, yubileylərinə həsr edilmiş birgə elmi konfranslar türk xalqları ilə Azərbaycan xalqının dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsinə qiymətli töhfədir. Belə tədbirlərə misal olaraq Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Türksoy və M.F.Axundov adına Milli Kitabxananın 2011-ci ilin dekabrında keçirdiyi: "Böyük Tatar şairi Abdulla Tuqyanın 120 illiyinə" və Azərbaycanın görkəmli kitabxanaşünas alimi professor Abuzər Xələfovun 80 illik yubileyinə həsr edilmiş ilk elmi konfransları göstərmək olar.

14 dekabr 2014-cü ildə Azərbaycan Mədəniyyət və Turizim Nazirliyinin, TÜRKSOY Beynəlxalq Təşkilatının və M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının təşkilatçılığı ilə türk dili dövlətlər arasında bu qəbildən ilk



dəfə görkəmli Azərbaycan alimi, Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki professor Abuzər Xələfovun 80, elmi-pedaqoji fəaliyyətinin 60 illik yubileyinə həsr edilmiş, Beynəlxalq elmi konfrans keçirildi. Konfransda Azərbaycan Respublikası Mədəniyyət və Turizim Naziri Əbülfəs Qarayev, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, Tatarıstan Respublikası Mədəniyyət Nazirinin birinci müavini İradə Ayupova, Millət vəkili, Milli Məclisin Mədəniyyət Komitəsinin sədri, AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərov, Bakı Dövlət Universitetinin kafedra müdiri dosent Knyaz Aslan, Türkiyə Milli Kitabxanasının direktoru Tunel Acar, kitabxananın şöbə müdiri Demet Aktaş, Qazaxıstan Milli Akademiyası kitabxanasının şöbə müdiri Nurqaysa Asubek, Azərbaycan Respublikasının TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı, çıxış etdi.

Çıxış edənlər prof. Abuzər Xələfovun böyük tədqiqatçı alim kimi xidmətlərindən, Azərbaycan kitabxanaşünaslıq elminin banisi kimi fəaliyyətindən, elmi əsərlərindən, milli kitabxanaşünaslığa gətirdiyi yeni ideya və fikirlərdən söhbət açdılar. Həmçinin Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafındakı fəaliyyətindən, müstəqil Kitabxanaçılıq-informasiya fakültəsinin yaradıcısı olmasından geniş bəhs etdilər.

Görkəmli türkoloq alimlər və türk ölkələri Milli Kitabxanalarının rəhbərləri prof. Abuzər Xələfovun yubileyini türk kitabxanaşünaslığının bayramı kimi qiymətləndirdilər.

Bütün burada göstərdiklərimizə əsasən demək olar ki, kitabxananın son on illərdəki fəaliyyəti daha səmərəli, daha məzmunlu, daha çoxşaxəli, yeni iş forma üsulları ilə zəngin olmuşdur. Kitabxananın maddi-texniki bazası

möhkəmlənmiş, kitab fondu zənginləşmiş, oxucularla işin təşkilində böyük kəmiyyət və keyfiyyət göstəriciləri baş vermişdir.

Rəqəmlərə müraciət edək. Hazırda Milli Kitabxananın kitab fondunda 5 milyon kitab saxlanılır. Həmçinin kitabxana fondunda zamanın tələbinə müvafiq yaranmış 3 miyondan artıq elektron informasiya daşıyıcıları toplanmışdır. Kitabxana 30 mindən artıq oxucuya xidmət edir. Oxucular ənənəvi fondla yanaşı kitabxananın elektron vasitələr fondundan da müvəffəqiyyətlə istifadə edirlər. Biridə oxuculara 200 mindən artıq ədəbiyyat verilir

Bütün göstərilən uğurların əldə edilməsində kitabxana kollektivinin və son zamanlar kitabxanaya başçılıq edən istedadlı təşkilatçı, tarix üzrə fəlsəfə doktoru Əməkdar Mədəniyyət eşçisi Kərim Tahirovun xidməti təqdirəlayiq olmuşdur. Həmçinin Milli Kitabxananın son illərdə əldə etdiyi bu müvəffəqiyyətlərdə, ölkəmizdə mədəni quruculuq sahəsində böyük nailiyyətlər qazanılmasında, Azərbaycan mədəniyyətinin beynəlxalq arenaya çıxmasında respublika Mədəniyyət və Turizm Nazirliyinin, şəxsən nazir Əbülfəs Qarayevin böyük xidmətlərini və yüksək təşkilatçılıq qabiliyyətini xüsusilə qeyd etmək yerinə düşər. Kitabxanaların güvənc yeri olan hörmətli nazirin respublikada kitabxana işinə, Milli Kitabxanaya diqqət və qayğısı respublikamızın kitabxana ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır.

Beləliklə Respublika Prezidenti İlham Əliyevin sərəncamı ilə 90 illik yubileyini 2013-cü ildə oktyabr ayında təntənəli şəkildə qeyd etdiyimiz M.F.Axundov adına Milli Kitabxana dövlətimizin daimi qayğısı sayəsində inkişaf və tərəqqi etmiş, bu müddət ərzində sönməz bir məşəl kimi Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin yolunu işıqlandırmış, neçə-neçə alimlər nəslinin,



yaradıcı ziyalıların formalaşmasına xidmət etmişdir. Milli Kitabxana bir nur mənbəyi kimi insan idrakının və əxlaqının saflaşmasına xidmət etmiş, oxucuların müdriklik və vətəndaşlıq qürurunun yüksəlməsi vasitəsi olmuşdur.

Azərbaycan kitabının qızıl fondu - M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası öz 90 illik şərəfli yubileyini 2013-cü il oktyabr ayının 9-da böyük qürur hissi və baş ucalığı ilə qeyd etdi. Kitabxananın bir qrup əməkdaşı yüksək dövlət mükafatı və fəxri adlarla təltif edildilər.

Eşq olsun xalqımızın görkəmli elm, təhsil və mədəniyyət məbədgahına, onun şərəfli kollektivinə!

***

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 90 il müddətində xalqımız, dövlətimiz, elm, təhsil və mədəniyyət qarşısında böyük xidmətlərini, neçə-neçə nəsillərin tərbiyə və təhsilində rol və əhəmiyyətini nəzərə alaraq möhtərəm Prezidentimiz İlham Əliyev M.F.Axundov adına Milli Kitabxananın 90 illik yubileyinin təntənəli şəraitdə keçirilməsi haqqında 24 iyun 2013-cü il tarixli sərəncam izalamışdır. Sərəncamda göstərilir: "Fəaliyyətə başladığı dövrdən etibarən Azərbaycan Milli Kitabxanası zəngin inkişaf yolu keçərək böyük əhəmiyyətə malik nəşrləri mühafizə edən mədəni sərvətlər xəzinəsinə çevrilmişdir. Ötən müddət ərzində o, cəmiyyətin intellektual-mənəvi potensialının artırılmasında əvəzsiz rol oynamış, elm və mədəniyyət xadimlərinin bir neçə nəslinin formalaşmasına öz töhfələrini vermişdir."

Bu sərəncama uyğun olaraq 25 sentyabr 2013-cü ildə Azərbaycan Akademik Opera və Balet Teatrında Mirzə

Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir.

Tədbiri giriş sözü ilə Mədəniyyət və Turizm naziri Əbülfəz Qarayev açmış, Milli Kitabxananın müasir Azərbaycanın mədəni və elmi həyatında mühüm yeri olduğunu qeyd etmişdir.

Sonra tədbirdə baş nazirin müavini, xalq yazıçısı Elçin Əfəndiyev geniş məruzə ilə çıxış etmişdir. O, Azərbaycan Milli Kitabxanasının keçdiyi şərəfli tarixi yola nəzər salmış, görülmüş işlər, əldə olunmuş uğurlar və qarşıda duran vəzifələr haqqında ətraflı söz açmışdır.

Tədbirdə Avropa Milli Kitabxanaları Konfransının prezidenti, Erdusa Milli Kitabxanasının direktoru Bruno Rasini, Avrasiya Milli Kitabxanaları Assambleysının prezidenti, Rusiya Milli Kitabxanasının baş direktoru Aleksandr Visliy çıxış edərək, Azərbaycan Milli Kitabxanasının əməkdaşlarını yubiley münasibətilə təbrik etmiş, onlara ən xoş arzularını çatdırmışlar.

Tədbirin sonunda Milli Kitabxananın direktoru Kərim Tahirov çıxış edərək dövlət başçısının Azərbaycan Milli Kitabxanasının yubileyi ilə bağlı sərəncam verməsini bütövlükdə kitabxana işinə yüksək qiymət kimi dəyərləndirmiş, bundan sonra da inamla çalışacaqlarını bildirmişdir.

Yubiley gecəsinin rəsmi hissəsindən sonra tədbir geniş konsert proqramı ilə davam etmişdir.

Qeyd edək ki, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 24 sentyabr 2013-cü il tarixli sərəncamları ilə Milli Kitabxananın bir qrup əməkdaşına fəxri adlarla, orden və medallarla təltif etmişdir.

Azərbaycan Milli Kitabxanasının yubileyi xalqımızın elm və mədəniyyət bayramına çevrilmişdir.



## ƏDƏBİYYAT


1. Xələfov A. Azərbaycanda kitabxana işinə dair Heydər Əlilyev doktrinası uğurla davam edir. B., 2009, 185 s.
2. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi. B., 1974, 244 s.
3. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi. B., 2001, 51 s.
4. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi. Dərslik, II hissə. B., 2007, 552 s.
5. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik, III hissə. B., 2010, 432 s.
6. Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. B., 2006, 312 s.
7. Xələfov A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri. B., 2006, 106 s.
8. Xələfov A. Kitabxana və cəmiyyət. B., 2011, 301 s.
9. Xələfov A. Kitabxanaşünaslığa giriş. I-II hissə. B., 2001, 400 s.
10. Xələfov A. Kitabxanaşünaslığa giriş. III hissə. B., 2003, 314 s.
11. Xələfov A. Sovet Azərbaycanında kitabxana işinin tarixindən. B., 1960, 178 s.
12. M.F.Axundov adına Respublika Kitabxanası - 40 il. B., 1963, 34 s.
13. Tahirov K. Bilik və zəka məbədi // Xalq qəzeti. 2013. 14 sentyabr.
14. Tahirov K. Bilik və zəka məbədi // Xalq qəzeti. 2013. 25 sentyabr.

15. Tahirov K. Bilik və zəka məbədi // Xalq qəzeti. 2013. 3 sentyabr.
16. Tahirov K. M.F.Axundov adına Respublika Milli Kitabxanasının tarixi (1923-2008-ci illər). B., 2008, 218 s.
17. Самедов М.Х. Азербайджанская республиканская библиотека имени М.Ф. Ахундова. Б., 1959, 68 с.



## Азербайджанская национальная библиотека имени М.Ф.Ахундова 90 лет на службе науки и культуры

В книге исследуетця история создания Азербайджанской национальной библиотеки имени М.Ф. Ахундова, роль и значение библиотеки в развитии науки, просвещения и культуры страны. Особое внимание уделяется деятельности библиотеки в 70-80-е годы. И в годы незовисимости мероперятиям проводимых для улучшения обслуживания читотелей, даны сведения о научно-методической библиографической деятельности библиотеки. Обстаятельно изложены сведения об информационной службе населению в годы незовисимости

## Azerbaijan National Library named after M.F.Akhundov 90 years in service of science and culture

The foundation and development of Azerbaijan National Library named after M.F.Akhundov, the role and importance of the library in the development of science, education and culture of the country is analyzed and summarized in the article. The article gives scientific information on the activity of the library, especially, in 1970-1980-ies including the years of independence, the events conducted in the management of the service to readers and scientific –methodical bibliographic activity of library. The article gives a wide interpretation of informative character of library and information management service to public in the years of independence.

# MÜNDƏRİCAT

ÖN SÖZ ....................................................................................3

I FƏSİL. M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANSININ YARANMASI TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

§1.1. Milli Kitabxana XX əsrin 20-ci illərində...................8

§1.2. Milli Kitabxana XX əsrin 30-cu illərində................13

§1.3. Milli Kitabxana XX əsrin 40-cı illərində.................17

§1.4. Milli Kitabxana XX əsrin 50-60-cı illərində............22

§1.5. Milli Kitabxana XX əsrin 70-80-ci illərində............26

II FƏSİL.M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASI MÜSTƏQİLLİK İLLƏRİNDƏ

§2.1. Ulu öndər Heydər Əliyevin Milli Kitabxanaya qayğısı..........................................................................36

§2.2. Milli Kitabxana və informasiya cəmiyyəti..............49

Ədəbiyyat..........................................................................59

İngilis və rus dillərində xülasə...........................................61

Çapa imzalanmışdır 28.11.2013. Kağız formatı 60x84 1/16.
Həcmi 4,0 ç.v. Sayı 200.

«Bakı Universiteti» nəşriyyatı, Bakı, AZ 1148, Z.Xəlilov, 23.

5m

Az-276191



Azərbaycan R
Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezidentin təqaüdçüsü, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov 60 ilə yaxındır ki, Bakı Dövlət Uuiversitetində səmərəli elmi-pedaqoji fəaliyyət göstərir.

Professor Abuzər Xələfov Kitabxanaçılıq-informasiya fakültəsinin ilk dekanı olmuş, 25 il bu vəzifədə çalışmışdır. 1963-cü ildən bu günə kimi Kitabxanaşünaslıq kafedrasının müdiridir. Öz fəaliyyəti dövründə 20 nəfərə yaxın fəlsəfə doktoru və elmlər doktoru yetişdirmiş, 20-dən artıq dissertantın opponenti olmuşdur. Azərbaycanda ali kitabxanaçılıq təhsilinin, müstəqil Kitabxanaçılıq-informasiya fakültəsinin inkişafında müstəsna xidmətləri olan prof. A.Xələfov milli kitabxanaşünaslıq elmi məktəbinin yaradıcısıdır.

Prof. A.Xələfov 300-dən artıq elmi əsərin, 30-dan artıq monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir.

2000-ci ildə prof. A.Xələfov Azərbaycanda kitabxanaşünaslıq elminin və ali kitabxanaçılıq təhsilinin inkişafındakı xidmətlərinə görə Prezident Heydər Əliyevin fərmanı ilə "Şöhrət" ordeni ilə təltif edilmiş, 2001-ci ildə isə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

BAKI UNİVERSİTETİ
NƏŞRİYYATI